# MUSİQİ

Metodik vəsait




2

NƏRGİZ RƏCƏBOVA
ŞƏHLA QULİYEVA
ZEMFİRA ƏLİYEVA

*Ümumi təhsil müəssisələrinin* **2***-ci sinifləri üçün*

# MUSİQİ

*fənni üzrə dərsliyin*

## METODİK VƏSAİTİ

© "Şərq-Qərb" Açıq Səhmdar Cəmiyyəti

Bu nəşrlə bağlı irad və təkliflərinizi
**info@eastwest.az** və **derslik@edu.gov.az**
elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

ŞƏRQ-QƏRB

## MÜNDƏRİCAT

*Giriş* . . . 3
*Kiçik summativ qiymətləndirməyə aid tapşırıqlar (I bölmə)* . . . 9
*2-ci sinif Musiqi fənni üzrə məzmun standartları* . . . 10
*Məzmun standartları və fənlərarası inteqrasiya cədvəli* . . . 11
*Tədris proqramının illik planlaşdırma cədvəli* . . . 12

*Dərslərin gündəlik planlaşdırılması*
I Bölmə. Mahnı janrı
1. Vətənpərvər mahnılar . . . 14
2. Əmək mahnıları . . . 15
3. Laylalar . . . 17
4. Mahnı-oyunlar . . . 18

II Bölmə. Marş janrı
5. İdman marşları . . . 20
6. Yürüş marşları . . . 21
7. Təntənəli marşlar . . . 23

III Bölmə. Rəqs janrı
8. Əmək rəqsləri . . . 25
9. Məzəli rəqslər . . . 26
10. Qəhrəmani rəqslər . . . 28
11. Mahnı, marş, rəqs. . . . 29

IV Bölmə. Melodiya, ritm, temp
12. Melodiya və intonasiya . . . 31
13. Musiqi ritmləri . . . 32
14. Asta, orta və tez templər . . . 33

V Bölmə. Lad, ölçü, dinamika
15. Major ladı . . . 35
16. Minor ladı . . . 36
17. Musiqi ölçüsü: "Bir və, iki və" . . . 38
18. Musiqi ölçüsü: "Bir və, iki və, üç və" . . . 39
19. Səsin gücü – dinamika . . . 41
20. Musiqi dili . . . 42

VI Bölmə. Musiqidə məzmun və forma
21. Musiqidə məzmun . . . 44
22. Musiqi obrazları . . . 46
23. Birhissəli musiqi əsərləri . . . 47
24. İkihissəli musiqi əsərləri . . . 49
25. Üçhissəli musiqi əsərləri . . . 51

VII Bölmə. Konsert zalında
26. Bəstəkar-ifaçı-dinləyici . . . 53
27. Afişa . . . 54
28. Konsertə hazırlıq . . . 56
29. Bayram konserti . . . 57

*Musiqi repertuarı* . . . 59
*İstinad edilmiş mənbələr* . . . 80

# GİRİŞ

Hörmətli müəllim! Ümumtəhsil məktəblərində tədris olunan Musiqi fənni şagirdin bədii-estetik tərbiyəsinin mühüm vasitəsidir. O, şagirdin mənəvi aləmini zənginləşdirir, yaxşılıq və gözəlliyə münasibətini formalaşdırır. Musiqi fənninin məqsədi musiqinin tədrisi və tərbiyəvi imkanları vasitəsilə şəxsiyyətin formalaşdırılmasıdır. Musiqi dərslərində şagird musiqi mədəniyyətinə yiyələnir, onun mənəvi-estetik əsasını öyrənir, öz yaradıcı imkanlarını gerçəkləşdirir. Musiqinin tədrisi məntiqi və analitik təfəkkürün inkişafına kömək edir, şagirdi qrupda işləməyə, intizama, qayda-qanuna alışdırır.

Dərslik komplekti Musiqi fənni üzrə təhsil proqramı, dərslik və tədris vasitələrinin tərtibinə qoyulan tələblər, tədris materialının planlaşdırılması, təlim üsullarının müəyyənləşdirilməsi və müəllimin hazırlığının həyata keçirilməsi üçün müvafiq təlimatlar formasında hazırlanmış qaydalar əsasında yazılmışdır. Dərslik komplektinin məzmunu şagirdin təhsil dəyərlərini aşkara çıxarır və milli şüurun formalaşmasına kömək edir.

### Dərslik

Şagirdlərin musiqi sahəsində bilik, bacarıq və vərdişlərə (dünyagörüşünün zənginləşdirilməsi, xorla oxu, sadə musiqi alətlərində çalma, rəqs elementlərinin yerinə yetirilməsi, ritmik və improvizəetmə bacarıqlarının formalaşması və inkişafı) yiyələnməsi məqsədilə dərslikdə verilən tədris materialı varislik prinsipinə əsaslanır. Belə ki burada I sinfin tədris materialı bir qədər ətraflı və geniş təqdim olunmuşdur. Dərslikdə mövzular 7 bölmədə qruplaşdırılmışdır: I – “Mahnı janrı”, II – “Marş janrı”, III – “Rəqs janrı”, IV – “Melodiya, ritm, temp“, V – “Lad, ölçü, dinamika“, VI – “Musiqidə məzmun və forma”, VII – “Konsert zalında”. Hər bölmədə verilmiş mövzu və tapşırıqlar II sinif üçün Musiqi fənn kurikulumunun standartlarının reallaşmasına xidmət edir. Tədris materialının planlaşdırılmasında təlimdə şüurluluq, fəallıq və müstəqillik prinsipi, sistemlilik və ardıcıllıq, sadədən mürəkkəbə, əyanilik və digər prinsiplər gözlənilmiş, şagirdlərin yaş xüsusiyyətləri və anlama səviyyəsi nəzərə alınmışdır.

Tədris materialı yalnız informativ xarakter daşımır. O, musiqi obrazları haqqında müəyyən emosional və rəngarəng təsəvvürlər yaradır. Musiqi janrları, musiqinin məzmunu və quruluşu (forma), musiqi ifadə vasitələri və s. məlumatlar isə şagirdlərə praktik şəkildə mənimsədilir.

Bu tədris ilində II sinfin Musiqi dərsliyinə ilk dəfə olaraq musiqili-didaktik oyunlar daxil edilmişdir. I sinifdə “musiqi aləminə səyahət”dən şagirdlərə tanış olan Saz və Ney personajları bu tədris ilində də onlara bələdçilik edəcəkdir. Dərslərin tədqiqat və refleksiv sualları həmin personajların vasitəçiliyi ilə şagirdlərə çatdırılır.

Hər bir bölmənin başlanğıcında I sinifdən şagirdlərə tanış olan obrazlar – notlar kiçik xülasə ilə həmin bölmənin məzmunu haqqında qısa məlumat verir.

Şagirdlərin yaş xüsusiyyətlərini və obrazlı təfəkkürünü nəzərə alaraq dərslikdə musiqi ifadə vasitələri, I sinifdə olduğu kimi, obrazlarla verilmişdir: Melodiya, Ritm, Temp, Lad, Ölçü, Dinamika.

Tədris ilində öyrənilən musiqi əsərlərinin, dərsin mövzusu ilə bağlı digər materialların videoçarxları və səsyazmaları dərslikdə QR kodlarla təqdim olunmuşdur. Onların vasitəsilə şagirdlər həm dərsdə, həm də evdə müstəqil olaraq həmin materiallarla tanış ola bilərlər.

II sinif Musiqi dərsliyində müəyyən qədər musiqi nəzəriyyəsi ilə bağlı sadə məlumatlar və fəaliyyət üçün praktik tapşırıqlar verilmişdir. Melodiya, ritm, temp, lad, ölçü, dinamika kimi musiqi ifadə vasitələri, musiqi əsərlərinin xarakteri, məzmunu və s. haqqında məlumatlar da şagirdlərin anlama səviyyəsində uyğun təqdim edilmişdir.

Dərslikdə *mahnının oxunması, musiqi əsərinin dinlənilməsi, obrazın təsvir edilməsi, zərb musiqi alətlərində çalmaq, rəqs elementlərinin, dirijorluq hərəkətlərinin* və *ritmik məşğələlərin yerinə yetirilməsi* kimi fəaliyyət növləri (praktik tapşırıqlar) şagirdlərin yaş səviyyəsi, dərketmə qabiliyyəti, maraq və ehtiyaclarını nəzərə almaqla onların yaradıcı təfəkkürünün inkişafına xidmət edir.

Dərslikdən daha səmərəli istifadə etmək üçün hər fəaliyyət növü fərqli simgələrlə göstərilmişdir.

*Oxumaq* – 

*Rəqs etmək* – 

*Dinləmək* – 

*Tapşırıq* – 

*Özünüzü yoxlayın* – 



Dərslikdəki QR kodlara müraciət edərək mövzu ilə əlaqədar daha çox maraqlı məlumat əldə edə bilərsiniz.

Mövzunun mənimsənilməsi üçün zəruri olan anlayışlar lüğətdə sadə formada təqdim olunmuşdur. Yeni materialın dərk edilib daha yaxşı mənimsənilməsi üçün dərslikdə müxtəlif sxemlərə, cədvəllərə, rəsmlərə, musiqi əsərlərinin ritmik şəkillərinə, rəqs elementlərinin sxemlərinə və s. geniş yer verilmişdir. Həmçinin təqdim edilən əsərlərin bəstəkarlarının portretləri və mahnılarının mətni (sözləri) yerləşdirilmişdir.

Bölmələrin sonunda həmin bölmə üçün nəzərdə tutulmuş standartlar əsasında "Özünüzü yoxlayın" rubrikasında (bu rubrika da simgə ilə verilmişdir) müxtəlif formalı məntiqi, tənqidi və yaradıcı təfəkkürün inkişafına xidmət edən tapşırıqlar verilmişdir. Bu tapşırıqların köməyi ilə şagirdlər əldə etdikləri nailiyyətlərini, bilik və bacarıqlarını yoxlaya bilərlər.

### Metodik vəsait

Metodik vəsait tövsiyə xarakteri daşıyır. Müəllim qurduğu dərslərdə müvafiq və məqsədəuyğun dəyişikliklər edə bilər.

Hər bir dərsin məqsədi (təlim nəticəsi) həmin dərsdə reallaşan standartlara görə müəyyənləşdirilmişdir. Fəndaxili inteqrasiyanı təmin edərək hər dərsdə Musiqi fənn kurikulumunun məzmun xətləri əlaqəli göstərilmişdir. Fənlərarası inteqrasiya Azərbaycan dili, Həyat bilgisi, Təsviri incəsənət, Fiziki tərbiyə fənləri ilə yaradılmışdır. Bu inteqrasiya şagirdlərdə eyni bacarıqların daha yaxşı formalaşmasına xidmət edəcəkdir.

Musiqi fənni üzrə təlim-tədris prosesinin səmərəli təşkili üçün müasir təlimin bütün formaları təqdim olunur: fərdi, cütlərlə, kiçik qruplarla, böyük qruplarla və kollektivlə iş. Bu isə hər bir şagirdin öyrənmə prosesinin intensivliyinə və əməkdaşlıq vərdişlərinin formalaşmasına şərait yaradır.

Təlimin qarşıya qoyduğu vəzifələrin həyata keçirilməsi təlim-tərbiyə prosesinə təsir edən amillərdən və şərtlərdən, o cümlədən öyrədici mühitdən əhəmiyyətli dərəcədə asılıdır. Müəllim öyrədici mühiti (şərti bölüm: əşyavi, informasiya və sosial-psixoloji mühit) təşkil etmək üçün şagirdin fərdi xüsusiyyətlərini nəzərə almalı, şəxsiyyətin inkişafına optimal şərait yaratmalıdır. Musiqi dərslərində öyrədici mühit yaratmaq üçün müəllim musiqi əsərlərinin bəstəkarlarının portretlərindən, mövzuya aid təqdimatlardan, şəkil, sxem, cədvəl, illüstrasiya və plakatlardan, sadə zərb musiqi alətlərindən, tapmacalardan, şeir, mahnıda verilmiş obrazlara aid əşya və maskalardan, rəqslərə aid atributlardan, cizgi filmlərinin, musiqi əsərlərinin videoçarxları və səsyazmalarından istifadə edə bilər.

Bütün dərslər I sinifdə olduğu kimi, 3 mərhələli strukturda verilib:

I. "Motivasiya", II. "Fəaliyyət", III. "Ümumiləşdirmə və refleksiya"

Metodik vəsaitdə hər dərsin I mərhələsi ("Motivasiya") şagirdləri fəaliyyətə sövq edən müxtəlif üsullarla verilmişdir: videoçarx və səsyazmalar (musiqi əsərlərindən, kino və cizgi filmlərindən parçalar), şəkil və əşyalar, səhnəcik və modelləşdirmə, afişa və məktub, lövhədə yazı və epiqraf, suallar və s. Bu cür üsullarla müəllim problemli vəziyyət yaradır və motivasiya mərhələsini tədqiqat sualı ilə bitirir.

II mərhələdə ("Fəaliyyət") təlim məqsədlərinə nail olmaq üçün dərsdə ediləcək fəaliyyət növləri əks olunmuşdur (mahnıoxuma, rəqsetmə, ritmtutma, musiqi alətlərində çalma, dinləmə və müxtəlif tapşırıqların yerinə yetirilməsi). *Fəaliyyət* mərhələsində dərsliklə işə və yerinə yetirilən tapşırıqlardan sonra müzakirələrə yer verilir.

III mərhələdə ("Ümumiləşdirmə və refleksiya") qapalı və açıq suallar vasitəsilə dərs boyu icra olunan fəaliyyət ümumiləşdirilir, refleksiya keçirilir.

Musiqi əsərlərini öyrənərkən müəllim şagirdləri əsərlərin bəstəkarlarının portretləri ilə tanış edir və onların yaradıcılığı haqqında qısa məlumat verir. II sinifdə şagirdlər Azərbaycan bəstəkarları Ü.Hacıbəyli, F.Əmirov, S.Rüstəmov, A.Rzayeva, Ş.Axundova, Q.Hüseynli, O.Zülfüqarov, M.Mirzəyevin əsərləri ilə tanış olurlar.

I sinifdən tanış olan bəzi musiqi nümunələri II sinfin musiqi repertuarına daxil edilmişdir. ("Marş" pyesi (Ü.Hacıbəyli), "Cəngi" və "Novruzu" Azərbaycan xalq rəqsləri.)

Metodik vəsaitdə musiqi nümunələrinin not mətni verilmişdir (səh. 59-79). Musiqi əsərlərinin videoçarxları və səs yazmaları "Şərq-Qərb" nəşriyyatının saytında yerləşdirilmişdir.

Müəllim bu materiallardan da resurs kimi istifadə edə bilər.

**Mahnı oxumaq.** Mahnını oxumazdan əvvəl mütləq vokal məşqi (qısa vokal tapşırığı) keçirmək lazımdır. Bu zaman fizioloji hazırlıq aparılır, mahnının ifasından öncə səs aparatı "isindirilir", nəfəs, artikulyasiya, tələffüz, intonasiya və digər zəruri vərdişlər formalaşdırılır. Vokal məşqlər taraz səslə, sakit (qışqırmadan) oxunmalıdır. Müəllim vokal tapşırıqları seçərkən onların melodik və ritmik cəhətdən sadə, yaddaqalan olmasına diqqət yetirməlidir. Metodik vəsaitdə nümunə üçün 7 vokal məşq verilmişdir. I vokal məşqini "*mi me ma mo mu*" hecaları ilə, II, III və VI vokal məşqlərini "*a*" hərfi ilə, IV və V vokal məşqlərini "m" hərfi ilə (bağlı ağızla), VII vokal məşqini isə notların adları ilə oxumaq lazımdır. Vokal məşqləri zamanı əldə olunan bacarıqlar mahnıların düzgün ifasına kömək edir.

Verilmiş mahnıların əksəriyyətinin 2-3 dərsdə öyrənilməsi nəzərdə tutulmuşdur. Mahnının düzgün və təmiz oxunması üçün müəllim ilk dərsdən mütəmadi olaraq şagirdlərin diqqətini "Mahnının ifa qaydaları"na (dərslik, səh. 5) yönəltməlidir. II sinifdə "Mahnının ifa qaydaları"na bir qayda – "Mahnını ifadəli oxuyun" əlavə olunmuşdur.

Xorla ifa musiqi dərslərində önəmli yer tutur. Xorla oxuma şagirdlərdə diqqəti, müşahidə qabiliyyətini, intizamı tərbiyə edir və onları yaradıcı kollektivdə birləşdirir. İfa zamanı şagirdlərin xorda oxu vərdişlərinə yiyələnməsi, səslərinin qorunması bacarıqlarının formalaşması üçün müəllim daimi və məqsədyönlü iş aparır.

Mahnıların ifası zamanı şagirdlər **dirijorluq hərəkətlərini** yerinə yetirirlər (2/4 və 3/4 musiqi ölçüsünün dirijorluq hərəkətləri). Şagirdlərin bu bacarığa yiyələnməsi üçün dərslikdə verilmiş sxem və şəkillərlə yanaşı, müəllimin əyani dirijorluğu da vacib şərtdir.

Musiqi fənn kurikulumunun tələblərinə uyğun olaraq, II sinifdə şagirdlər mahnını *kanonla ifaetmə* bacarığına yiyələnirlər. Şagirdlərin *kanonla ifa* bacarığına yiyələnməsi üçün müəllim sxem və musiqili-didaktik oyundan istifadə edir.

**Musiqi əsərlərini dinləmək.** Musiqi repertuarına asan mənimsənilən və şagirdlərin yaş səviyyəsinə uyğun təntənəli, həzin, oynaq xarakterli musiqi nümunələri daxil edilmişdir.

Müəllim 1-ci dərsdə şagirdləri "Musiqi əsərinin dinləmə qaydaları" ilə (dərslik, səh. 5) tanış etməli, vaxtaşırı onların diqqətini həmin qaydalara yönəltməlidir. Musiqi əsərləri tam şəkildə və ya hissə-hissə (*stop-kadr* üsulu ilə) səsləndirilməlidir. Dərsin məqsədlərinə uyğun olaraq şagirdlərə bu musiqi nümunələrinin melodik xüsusiyyətləri, ritm, temp, lad, ölçü, dinamik çalarlar, janr, məzmun və quruluşu (forması), müşayiətdə musiqi alətlərinin səslənməsi haqqında qısa məlumat verilməlidir. Musiqi nümunələri dinlənildikdən sonra müzakirələrdə şagirdlərin iştirakı təmin edilməlidir.

**Musiqili-ritmik hərəkətlər (ritmika).** Musiqili-ritmik fəaliyyət uşağın əqli, fiziki, mənəvi, estetik keyfiyyətlərinin tərbiyəsinə yönəldilmişdir. Musiqili-ritmik hərəkətlər musiqi qabiliyyətinin inkişafına kömək edir. Onlar həmçinin musiqiyə emosional münasibətin, ritmik hissiyyatın inkişafına da təsir edir.

Ritmika uşaqların əhvali-ruhiyyəsinə, həmçinin orqanizmin ümumi vəziyyətinə müsbət təsir göstərir. Musiqili-ritmik fəaliyyətdə uşaq şəxsiyyətinin müsbət keyfiyyətləri inkişaf edir, onda musiqi – estetik hisslər yaranır, dünyagörüşü artır. Musiqili-ritmik hərəkətlərin icrası zamanı musiqiyə sevgi aşılanır, uşağın musiqi zövqü formalaşır. Həmçinin ritmika vasitəsilə hiperaktiv və xüsusi qayğıya ehtiyacı olan uşaqlar da özlərini "rahat" hiss edir, sərbəst hərəkət etməyi öyrənirlər.

Musiqili-ritmik hərəkətlər şən, ritmik musiqi ilə müşayiət olunur. Bu da musiqi materialının daha yaxşı mənimsənilməsinə imkan verir.

**Rəqsləri ifa etmək.** II sinfin proqramına, I sinifdə olduğu kimi, rəqslərin öyrənilməsi (Azərbaycan xalq rəqslərinin bəzi elementləri) daxil edilmişdir. Əvvəl rəqsin musiqisi dinlənilməlidir. Sonra rəqs elementlərini (hərəkətlərini) öyrədərkən uşaqlara Azərbaycan xalq rəqslərinin ifa tərzini çatdırmaq lazımdır: qızların hərəkətləri incəliyi, zərifliyi, oğlanların hərəkətləri isə cəsurluğu, çəldliyi bildirməlidir. Dərslikdə rəqs elementləri şəkil və sxemlərdə verilmişdir. Rəqsin ifası üçün onun məzmununa uyğun şagirdlərə rəqs atributlarının paylanması məqsədyönlüdür.

**Musiqi alətlərində çalmaq.** II sinfin proqramında da, I sinifdə olduğu kimi, bu fəaliyyət sadə zərb musiqi alətləri vasitəsilə yerinə yetirilir. Dərslikdə müvafiq cədvəllər, ritmik şəkillər, sxemlər təqdim olunmuşdur. Musiqi alətində (*nağara, dəf, şaxşax, zəng, metallofon və baraban*) çalmazdan əvvəl onun quruluşu, həmin alətdə ifa zamanı oturuş qaydası, əllərin alət üzərində düzgün qoyulması izah olunmalıdır. Bu tədris ilində şagirdlər metallofonda (oktava daxilində) səs sırasını yuxarı və aşağı istiqamətdə çalmağı öyrənirlər.

**Təlimi diferensiallaşdırmaq.** Təlimin diferensiallaşdırılmasını aşağıdakı üsullarla həyata keçirmək olar:

• Yaradıcılıq səviyyəsinə görə (yaradıcı olmayan tapşırıqlara aiddir: faktoloji sualların cavablandırılması, müəllimin ifasının təkrar olunması və s. Yaradıcı tapşırıqlar isə qeyri-standart nəticələri ehtiva edir: təxəyyülə əsaslanan şəkil çəkmək, rollu oyunda iştirak, sadə musiqi alətlərində çalmaq, rəqs etmək və s.);

• Çətinlik səviyyəsinə görə;

• Həcminə görə (mövzuya uyğun əlavə tapşırıqlar təklif oluna bilər);

• Müstəqillik səviyyəsinə görə (bütün uşaqlar eyni tapşırığı yerinə yetirir – bəziləri müstəqil şəkildə, digərləri isə müəllimin köməyi və nəzarəti altında);

• Öyrənmə fəaliyyətinin xarakterinə görə;

• Şagirdlərə göstərilən köməyin xarakterinə görə (bütün uşaqlar eyni vaxtda işə başlayır və köməyə ehtiyacı olan şagirdlərə dəstək göstərilir: köməkçi kartlar, asan, lakin oxşar tapşırıqların verilməsi, lövhədə qeydlər və s.).

Təhsildə xüsusi qayğıya ehtiyacı olan şagirdlərin öyrənmə aktivliyi və bacarıqları fərqlidir. "Hərəkətli kanon", "Toyuq və cücə", "İdmançılar marşı", "Məzəli əhvalat", "Şəlalə", "Bənövşə" musiqili-didaktik, mahnı və rəqs-oyunlar vasitəsilə təhsildə xüsusi qayğıya ehtiyacı olan

şagirdlərin də musiqi bilik, bacarıq və vərdişləri formalaşır. Həmin oyunların qaydaları metodik vəsaitdə verilmiş *Dərslərin gündəlik planlaşdırılması*nda və dərslikdə də göstərilmişdir. Müəllim dərsin mövzusu ilə bağlı I sinifdə tətbiq olunan musiqili-didaktik oyunlardan təkrar istifadə edə bilər.

**Oyunlar.** Uşaqlar hər hansı fəaliyyətə, xüsusilə oyuna asanlıqla cəlb olunurlar. Oyun onlar üçün tədris, əmək, ciddi tərbiyəedici formadır. Buna görə də müəyyən təhsil problemlərini həll etmək üçün uşaqların oyun istəklərindən və ehtiyaclarından istifadə edərək onları oyunlara cəlb etmək məsləhətdir.

Didaktik (öyrədici) oyunlar şərti olaraq 3 növə ayrılır: oyuncaqla (müxtəlif əşya) oynanılan oyunlar, şifahi və ya sözlü (tapmaca) oyunlar, loto (cütşəkilli kart) oyunları. Dərs zamanı didaktik oyunlardan istifadə uşaqlarda yaddaş, diqqət və təfəkkürün inkişafına kömək edir. II sinifdə Musiqi dərslərində *şəkil üzərində iş*, *krossvord* kimi stolüstü oyunlar da keçirilir.

Musiqi dərslərində süjetli və süjetsiz elementar mütəhərrik oyunlardan və əl-ələ tutub dairədə hərəkətlər edib oynanılan, mahnılarla müşayiət olunan oyunlardan istifadə etmək olar. Mütəhərrik oyunlar çəldliyi, çevikliyi, sürəti inkişaf etdirir, fiziki cəhətdən təkmilləşməyə zəmin yaradır (xüsusən oyunun yarış formasında keçiriləndə).

Musiqi dərslərində rollu oyunlar da tətbiq olunur. Rollu oyunlarda şagird müəyyən bir obrazı canlandırır, öz təəssüratlarını üzə çıxarır. Oyun vəziyyətinin xəyal olduğunu anlayan uşaqlar buna baxmayaraq, olduqca real hisslər yaşayır, təcrübə qazanır və bununla da daxili dünyalarını zənginləşdirirlər. Müxtəlif rolları yerinə yetirərkən uşaqlar fərqli fəaliyyətlərin bütün aspektlərini əhatə edirlər ki, bu da, öz növbəsində, onlarda idrakın inkişafına kömək edir. Tərəfdaşlarla birgə oyun zamanı uşaqlar ünsiyyət qurmağı, başqalarının istək və fəaliyyətlərini nəzərə almağı, fikirlərini müdafiə etməyi, həmçinin birgə planlar hazırlamağı və həyata keçirməyi öyrənirlər. Oyun həm uşağın psixoloji vəziyyətini müəyyən etmək və şəxsiyyət kimi inkişafının diaqnostikasını aparmaq üçün bir vasitə, həm də onun inkişafındakı ləngiməni və qüsurları aradan qaldırmaq üçün əla metoddur (məs., zəif düşünən, utancaq, nitqi zəif inkişaf edən, işi səliqəsiz yerinə yetirən, tənbəl və s. şagirdlər).

**Qiymətləndirmə.** Məktəbdaxili qiymətləndirmə təhsilin keyfiyyətini yüksəltmək məqsədi daşıyır.

Şagirdlərin ilkin bilik və bacarıq səviyyəsini müəyyənləşdirmək üçün ***diaqnostik qiymətləndirmədən*** istifadə edilir. Müsahibə, söhbət, müşahidə, tapşırıqlar və valideynlərlə əməkdaşlıq üsulları ilə şagirdlərin maraq dairəsi, dünyagörüşü, musiqi qabiliyyəti haqqında məlumat əldə edilir. Bu da, öz növbəsində, təlim məqsədləri və strategiyalarında çevik dəyişikliklər aparılmasına imkan yaradır.

Hər bir dərsdə təlim nəticələrinin reallaşması səviyyəsini ***formativ qiymətləndirmə*** vasitəsilə müəyyən etmək olar. Formativ qiymətləndirmə yalnız şagird nailiyyətlərinin dinamikasını ölçən üsul deyil. O bu nailiyyətlərin əsas səbəblərindən biridir. Çünki dərsdə həyata keçirilən formativ qiymətləndirmə zamanı şagird əks-əlaqə nəticəsində öz təlim fəaliyyətinin zəif və güclü tərəflərini öyrənərək onları qiymətləndirir, özünü öyrənmənin qarşısına yeni məsələlər qoyur və inkişaf edir.

Formativ qiymətləndirmənin mexanizmləri: şagirdin qiymətləndirmə meyarlarını əvvəlcədən bilməsi və öz fəaliyyətində ona yönəlməsi; hər bir şagirdə xüsusi əks-əlaqənin verilməsi; şagirdin inkişafa istiqamətləndirilməsi; refleksiya və özünüqiymətləndirmə fəaliyyətlərinin həyata keçirilməsi.

Musiqi dərslərində, başqa dərslərdə olduğu kimi, müəllim şagird nailiyyətinin inkişafını izləməklə təlim strategiyasını qurur. Formativ qiymətləndirmə şagirdi pozitiv ruha kökləməli,

daha yaxşı nailiyyətlər əldə etməyə həvəsləndirməlidir. Qiymətləndirmənin bu növünü müxtəlif yollarla keçirmək olar: müşahidə, sorğu, müqayisə və s.

Musiqi dərslərində formativ qiymətləndirməni aşağıdakı meyarlara görə aparmaq olar: dinləmə və əsərin təhlili, xor-vokal fəaliyyəti, səlis intonasiya, musiqi alətlərində çalma, mahnının ifa qaydalarına riayət, ritmik hərəkətlərin və rəqs elementlərinin icrası, müxtəlif musiqi fəaliyyətləri zamanı öyrənmə fəallığı, musiqili oyunlarda iştirak, yaradıcı tapşırıqların yerinə yetirilməsi.

Məsələn, formativ qiymətləndirməni "Notları topla" üsulu ilə də aparmaq olar. Qiymətləndirmənin bu üsulunu tətbiq etmək üçün müəllim üzərində notlar təsvir olunmuş bir neçə kart hazırlayır. Dərs zamanı şagirdlərin nailiyyətlərini həmin kartları təqdim etməklə qiymətləndirir və toplanan kartların sayına əsaslanıb təlim prosesinin sonrakı strategiyasını müəyyənləşdirir.

*Özünüqiymətləndirmə* şagirdi öz fəaliyyətini təhlil və müqayisə etməyə, dəyərləndirməyə, nəticə çıxarmağa və daha yaxşı işləməyə sövq edir. Bunun üçün "İşıqfor", "Ovuc və yumruq" üsullarından istifadə etmək olar.

**1. "İşıqfor"**. Hər bir şagirdə üç rəngdə (qırmızı, sarı və yaşıl) kart paylanır. Əks-əlaqədə şagirdlər bu kartlardan istifadə edirlər: qırmızı rəng (kömək lazımdır), sarı (əmin deyiləm), yaşıl (öhdəsindən gəlirəm).

**2. "Ovuc və yumruq"**. Hər bir şagird təlimatlandırılır: ovuc – "tapşırığı yerinə yetirdim", üç barmaq – "tapşırığı qismən yerinə yetirdim", yumruq – "tapşırığın öhdəsindən gələ bilmirəm" deməkdir.

Bundan əlavə, hər bölmənin sonunda verilmiş "Özünüzü yoxlayın" rubrikasında məntiqi, tənqidi və yaradıcı təfəkkürün inkişafına xidmət edən suallara cavab verməklə şagirdlər özünüqiymətləndirməni apara bilərlər.

***Kiçik summativ qiymətləndirmə.*** Musiqi fənni üzrə dərsliklərdə nəzərdə tutulmuş hər bölmənin daxilində və ya bölmənin sonunda hər yarımildə 3 dəfədən az, 6 dəfədən çox olmamaqla müəllim tərəfindən aparılır. Kiçik summativ qiymətləndirmələrin aparılacağı tarix haqqında məlumat tədris ilinin birinci həftəsi ərzində müəllim tərəfindən sinifdə təhsilalanlara elan olunur. Summativ qiymətləndirmə Musiqi fənni üzrə təhsil proqramında (kurikulumda) müəyyənləşdirilmiş məzmun standartlarının mənimsənilməsi ilə bağlı təhsilalanların əldə etdiyi nailiyyətlərin müəyyən olunması məqsədilə aparılır. Kiçik summativ qiymətləndirmə vasitələri Musiqi fənnini tədris edən müəllim tərəfindən hazırlanır. Nümunə kimi metodik vəsaitdə I bölməyə aid kiçik summativ qiymətləndirmənin tapşırıqları verilmişdir (səh. 9).

II sinifdə məktəbdaxili qiymətləndirmənin böyük summativ növü aparılmır.

**Valideynlərlə iş.** Şagirdlərin öyrənməsi ilə bağlı məlumatlanmaqda maraqlı olan tərəflərdən biri də valideynlərdir. Övladlarının təlimdə irəliləməsi və geriləməsi haqqında məlumatların daimi olaraq onlara çatdırılması qanunvericilikdə də nəzərdə tutulmuşdur.

Həmin məlumatlar e-mail vasitəsilə və ya telefonda mesaj yazmaqla valideynə çatdırıla bilər.

Təqdim olunan məlumatlar şagirdin öyrənməsinin həqiqi vəziyyətini əks etdirməli, onu ruhdan salmamalı və yaranan problemin həllində valideynin hansı köməyi edə biləcəyini müəyyənləşdirməlidir.

Valideynlərlə işin bir növü onların sinif konsertlərinə dəvət edilməsidir. Tədris ilinin hər iki yarımilində hesabat xarakterli sinif konsertinin təşkilində valideynlərin yaxından iştirak etməsi övladlarının ümumi musiqi tərbiyəsinə böyük dəstəkdir. Həmçinin konsertdə iştirak edən valideynlər övladlarının tədris prosesindəki nailiyyətləri haqqında da məlumatlanarlar. Konsertin təşkilində valideynlərin rəy və təkliflərinin nəzərə alınması vacibdir. Bunun üçün müvafiq sorğu vərəqlərindən istifadə etmək olar.

# KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏYƏ AİD TAPŞIRIQLAR (I BÖLMƏ)

**1.** (*1.1.1.*) "Hüququndan keçən əsgər,
Hərə bir qəhrəman oldu" sözləri olan mahnının bəstəkarı kimdir?
**a) Üzeyir Hacıbəyli**
b) Oqtay Zülfüqarov
c) Ağabacı Rzayeva

**2.** (*1.1.1.*) Verilmiş mahnılardan hansının bəstəkarı Ağabacı Rzayevadır?
a) "Laylay"
b) "Bayram günü"
**c) "Mişar"**

**3.** (*1.1.1.*) "Ana laylası" mahnısının musiqisini hansı bəstəkar yazıb?
a) Üzeyir Hacıbəyli
**b) Oqtay Zülfüqarov**
c) Ağabacı Rzayeva

**4.** (*2.1.1.*) Vətənpərvər mahnılar nəyi ifadə edir?
a) həyəcanı
b) əməksevərliyi
**c) milli birliyi**

**5.** (*2.1.1.*) Mahnı-oyunların başqa mahnılarla oxşarlığı nədədir?
a) qaydalara görə
**b) janrına görə**
c) xarakterinə görə

**6.** (*2.1.3.*) Vətənpərvər mahnıları necə ifa etmək lazımdır?
**a) qürurla**
b) zarafatyana
c) qəmli

**7.** (*2.1.3.*) Əmək mahnılarının xarakteri necə olur?
a) həyəcanlı
b) qəmli
**c) gümrah**

**8.** (*2.1.3.*) Laylaları nə zaman ifa edirlər?
a) körpəni yedirdərkən
**b) körpəni yatırdarkən**
c) körpəni gəzdirərkən

**9.** (*2.1.3.*) Mahnı-oyunlar necə ifa olunur?
a) sakit dayanmaqla
b) oyun qaydalarını pozmaqla
**c) hərəkətlər etməklə**

**10.** (*3.1.1.*) İfa zamanı verilmiş şəkildə üçüncü işarə müəllimin hansı göstərişini bildirir?
**a) "ifaya başla"**
b) "ifanı bitir"
c) "nəfəs al"



# 2-ci SİNİF MUSİQİ FƏNNİ ÜZRƏ MƏZMUN STANDARTLARI

**II sinfin sonunda** şagird:

- ifa etdiyi və dinlədiyi musiqi əsərlərini tanıdığını nümayiş etdirir;
- əsas musiqi janrları, musiqi ifadə vasitələri və musiqi əsərlərinin quruluşu haqda təsəvvürə malik olduğunu nümayiş etdirir;
- dinlədiyi musiqi əsərlərində ifadə olunan məzmunu başa düşdüyünü nümayiş etdirir;
- xor tərkibində ifa bacarıqları nümayiş etdirir;
- sadə uşaq musiqi alətlərində ifa bacarıqları nümayiş etdirir;
- mahnı ifaçılığı qaydalarını mənimsədiyini nümayiş etdirir.

**Məzmun xətləri üzrə əsas və alt standartlar**

**1. Musiqi aləmi**

***Şagird:***

**1.1. İfa etdiyi və dinlədiyi musiqi əsərlərini tanıdığını nümayiş etdirir.**

1.1.1. Dinlədiyi və ifa etdiyi əsərlərin bəstəkarları haqqında qısa məlumat verir.
1.1.2. Dinlədiyi musiqi əsərinin müəllifini tanıyır.
1.1.3. Uşaq mahnıları haqqında qısa məlumat verir.

**1.2. Əsas musiqi janrları, musiqi ifadə vasitələri və musiqi əsərlərinin sadə quruluşu haqda təsəvvürə malik olduğunu nümayiş etdirir.**

1.2.1. Dinlədiyi musiqi əsərləri içərisində mahnı, rəqs, marş janrlarını müəyyən edir.
1.2.2. Müxtəlif janrlı musiqi əsərlərində sadə ifadə vasitələrini (ölçü, ritm, temp) müəyyən edir.
1.2.3. Dinlədiyi musiqi əsərlərinin quruluşunu (1, 2, 3 hissəli) müəyyənləşdirir.

**2. Emosional dəyərləndirmə**

***Şagird:***

**2.1. Dinlədiyi musiqi əsərlərində ifadə olunan məzmunu qavradığını nümayiş etdirir.**

2.1.1. Musiqi əsərinin müxtəlif məzmunlu emosional xarakterini izah edir.
2.1.2. İfa etdiyi mahnıların melodiyalarına sadə vasitələrlə (ayaq tappıltısı, əl çalmaq, çırtma) ritm tutur.
2.1.3. Verilmiş musiqi nümunələrini xarakterinə uyğun ifa edir.

**3. Musiqi fəaliyyəti**

***Şagird:***

**3.1. Xor tərkibində ifa bacarıqlarını nümayiş etdirir.**

3.1.1. Müəllimin göstərişi ilə mahnıların melodiyasını sözləri ilə və notlarla oxuyur.
3.1.2. Xor tərkibində 2 səsli (kanon) oxuyur.

**3.2. Sadə uşaq musiqi alətlərində ifa bacarıqlarını nümayiş etdirir.**

3.2.1. Oktavadakı 8 səsi 2 hissəyə ayıraraq (4 və 4) uşaq musiqi alətlərində ardıcıl olaraq notla və notsuz çalır.
3.2.2. Uşaq zərb alətləri vasitəsilə müxtəlif musiqi kompozisiyaları müşayiət edir.
3.2.3. Uşaq musiqi alətində 4-8 xanəli sadə melodiyaları ansambl (qrup şəklində) şəklində notla və notsuz ifa edir.

**3.3. Mahnı ifaçılığı qaydalarını mənimsədiyini nümayiş etdirir.**

3.3.1. Mahnının ladının (major və minor) dinamik nüanslarla (*mp, mf*) düzgün səslənməsinə riayət edir.
3.3.2. Mahnını ritminə və tempinə uyğun oxuyur.
3.3.3. Öz ifasını 2/4, 3/4 ölçülü dirijorluq hərəkətləri ilə göstərə bilir.

# MƏZMUN STANDARTLARI VƏ FƏNLƏRARASI İNTEQRASİYA CƏDVƏLİ

| Bölmə | Dərsin №-si | Mövzu | 1.1. | 1.2. | 2.1. | 3.1. | 3.2. | 3.3. | Azərb.d. | H.b. | F.t. | T.i. |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1. Mahnı janrı | 1 | Vətənpərvər mahnılar | 1.1.1. | | 2.1.1. 2.1.3. | | | | 1.2.1. | 3.2.1. | | |
| | 2 | Əmək mahnıları | 1.1.1. | | 2.1.3. | 3.1.1. | | | 2.2.5. | | | |
| | 3 | Laylalar | 1.1.1. | | 2.1.3. | 3.1.1. | | | 2.2.5. | | | |
| | 4 | Mahnı-oyunlar | | | 2.1.1. 2.1.3. | | | | | 1.3.1. | 2.1.3. | |
| 2. Marş janrı | 5 | İdman marşları | 1.1.1. | | 2.1.2. | | | | 4.1.7. | | 2.1.3. | |
| | 6 | Yürüş marşları | 1.1.1. | | 2.1.3. | | 3.2.2. | | | | 2.1.1. | |
| | 7 | Təntənəli marşlar | | | 2.1.3. | | 3.2.2. | | | | 2.1.3. | |
| 3. Rəqs janrı | 8 | Əmək rəqsləri | 1.1.1. | | 2.1.3. | | | | 1.2.1. | | 4.1.1. | |
| | 9 | Məzəli rəqslər | | | 2.1.3. | | | | | | 4.1.1. | |
| | 10 | Qəhrəmani rəqslər | | | 2.1.3. | 3.1.1. | | | 1.2.3. | | 4.1.1. | |
| | 11 | Mahnı, marş, rəqs | | 1.2.1. | 2.1.3. | | | | 1.2.3. | | 4.1.1. | |
| 4. Melodiya, ritm, temp | 12 | Melodiya və intonasiya | 1.1.1. | | 2.1.3. | | 3.2.1. | | 2.2.5. | | | |
| | 13 | Musiqi ritmləri | | 1.2.2. | 2.1.3. | | 3.2.2. | | 2.2.1. | | | |
| | 14 | Asta, orta və tez templər | | 1.2.2. | | | | 3.3.2. | 2.2.1. | | | |
| 5. Lad, ölçü, dinamika | 15 | Major ladı | 1.1.1. | | 2.1.1. | | | 3.3.1. | 1.2.1. | | | |
| | 16 | Minor ladı | 1.1.3. | | 2.1.1. | | | 3.3.1. | 1.2.1. | | | |
| | 17 | Musiqi ölçüsü: "Bir və, iki və" | | 1.2.2. | 2.1.3. | | | 3.3.3. | | | 4.1.1. | |
| | 18 | Musiqi ölçüsü: "Bir və, iki və, üç və" | | 1.2.2. | 2.1.2. | | | 3.3.3. | | | 4.1.1. | |
| | 19 | Səsin gücü – dinamika | | | 2.1.3. | | | 3.3.1. | 2.2.1. | | | |
| | 20 | Musiqi dili | 1.1.3. | | 2.1.3. | | 3.2.1. | | 1.2.1. | | | |
| 6. Musiqidə məzmun və forma | 21 | Musiqidə məzmun | 1.1.2. | | 2.1.1. | | | 3.3.2. | 1.2.1. | | | 3.1.1. |
| | 22 | Musiqi obrazları | 1.1.2. | | 2.1.3 | 3.1.2. | | | 1.2.3. | | | |
| | 23 | Birhissəli musiqi əsərləri | | 1.2.3. | | | | 3.3.2. | 1.2.1. | | | 3.1.1. |
| | 24 | İkihissəli musiqi əsərləri | | 1.2.3. | 2.1.3. | | | | 1.2.1. | | | 3.1.1. |
| | 25 | Üçhissəli musiqi əsərləri | | 1.2.3. | | | 3.2.3. | | 1.2.1. | | | 3.1.1. |
| 7. Konsert zalında | 26 | Bəstəkar-ifaçı-dinləyici | | | 2.1.1. | 3.1.2. | | | 3.1.4. | | | |
| | 27 | Afişa | | 1.2.1. | 2.1.1. | 3.1.1. | | | | | | 2.1.1. |
| | 28 | Konsertə hazırlıq | | | 2.1.3. | 3.1.1. | | | | | 4.1.1. | |
| | 29 | Bayram konserti | | | 2.1.3. | | 3.2.3. | | | 2.1.2. | | |

## TƏDRİS PROQRAMININ İLLİK PLANLAŞDIRMA CƏDVƏLİ

| Dərsin №-si | Standart | Bölmə | Mövzu | Saat | Musiqi repertuarı |
|---|---|---|---|---|---|
| 1 | 1.1.1., 2.1.1., 2.1.3. | 1. Mahnı janrı | Vətənpərvər mahnılar | 1 | 1. Azərbaycan Respublikasının Dövlət Himni. Üzeyir Hacıbəyli, Əhməd Cavad<br>2. "Bayram günü". Üzeyir Hacıbəyli, Mirmehdi Seyidzadə |
| 2 | 1.1.1., 2.1.3., 3.1.1. | | Əmək mahnıları | 1 | 1. "Sabahın ustaları". Ağabacı Rzayeva, Hüseyn Abbaszadə<br>2. "Mişar". Ağabacı Rzayeva, Cahangir Məmmədov |
| 3 | 1.1.1., 2.1.1., 3.1.1. | | Laylalar | 1 | 1. "Ana laylası". Oqtay Zülfüqarov, Rəfiq Zəka<br>2. "Laylay". Oqtay Zülfüqarov, Teymur Elçin |
| 4 | 2.1.1., 2.1.3. | | Mahnı-oyunlar | 1 | 1. "Bənövşə". Azərbaycan uşaq xalq mahnısı<br>2. "İdman". Oqtay Zülfüqarov, Səttar Zərdablı |
| Kiçik summativ qiymətləndirmə | | | | 1 | |
| 5 | 1.1.1., 2.1.2. | 2. Marş janrı | İdman marşları | 1 | 1. "Marş". Musa Mirzəyev<br>2. "Gənc idmançılar marşı". Musa Mirzəyev, Hikmət Ziya |
| 6 | 1.1.1., 2.1.3., 3.2.2. | | Yürüş marşları | 1 | 1. "Vətən". Səid Rüstəmov, Süleyman Rüstəm |
| 7 | 2.1.3., 3.2.2. | | Təntənəli marşlar | 1 | 1. "Ey Vətən". Üzeyir Hacıbəyli, Səməd Vurğun<br>2. "Vətən". Səid Rüstəmov, Süleyman Rüstəm |
| Kiçik summativ qiymətləndirmə | | | | 1 | |
| 8 | 1.1.1., 2.1.3. | 3. Rəqs janrı | Əmək rəqsləri | 1 | 1. "Üzümçülər". Şəfiqə Axundova, Cavad Cavadlı<br>2. "Pambığı". Azərbaycan xalq rəqsi |
| 9 | 2.1.3. | | Məzəli rəqslər | 1 | 1. "Yumoreska". Musa Mirzəyev<br>2. "Xurcun". Azərbaycan xalq rəqsi |
| 10 | 2.1.3., 3.1.1. | | Qəhrəmani rəqslər | 1 | 1. "Sadiq olaq Vətənə". Oqtay Zülfüqarov<br>2. "Cəngi". Azərbaycan xalq rəqsi |
| 11 | 1.2.1., 2.1.3. | | Mahnı, marş, rəqs | 1 | 1. "Marş". Musa Mirzəyev<br>2. "Sadiq olaq Vətənə". Oqtay Zülfüqarov<br>3. "Cəngi". Azərbaycan xalq rəqsi |
| Kiçik summativ qiymətləndirmə | | | | 1 | |
| 12 | 1.1.1., 2.1.3., 3.2.1. | 4. Melodiya, ritm, temp | Melodiya və intonasiya | 1 | 1. "Cücələrim". Qəmbər Hüseynli, Tofiq Mütəllibov |
| 13 | 1.2.2., 2.1.3., 3.2.2. | | Musiqi ritmləri | 1 | 1. "Cücələrim". Qəmbər Hüseynli, Tofiq Mütəllibov<br>2. "Qaliblər mahnısı". Qəmbər Hüseynli, Ələkbər Ziyatay |

| | | | | | |
|---|---|---|---|---|---|
| 14 | 1.2.2., 3.3.2. | | Asta, orta və tez templər | 1 | 1. "Məktəbə gedərkən". Qəmbər Hüseynli<br>2. "Qaliblər mahnısı". Qəmbər Hüseynli, Ələkbər Ziyatay |
| Kiçik summativ qiymətləndirmə | | | | 1 | |
| 15 | 1.1.1., 2.1.1., 3.3.1. | 5. Lad, ölçü, dinamika | Major ladı | 1 | 1. "Qatar". Fikrət Əmirov, Zeynal Cabbarzadə |
| 16 | 1.1.3., 2.1.1., 3.3.1. | | Minor ladı | 1 | 1. "Quşlar". Fikrət Əmirov, Zeynal Cabbarzadə |
| 17 | 1.2.2., 2.1.3., 3.3.3. | | Musiqi ölçüsü: "Bir və, iki və" | 1 | 1. "Quşlar". Fikrət Əmirov, Zeynal Cabbarzadə<br>2. "Yallı". Azərbaycan xalq rəqsi |
| 18 | 1.2.2., 2.1.2., 3.3.3. | | Musiqi ölçüsü: "Bir və, iki və, üç və" | 1 | 1. "Qərənfil". Səid Rüstəmov, Mirmehdi Seyidzadə<br>2. "Quzum". Azərbaycan xalq rəqsi |
| 19 | 2.1.3., 3.3.1. | | Səsin gücü – dinamika | 1 | 1. "Qırmızı şar". Ağabacı Rzayeva, Cahangir Məmmədov<br>2. "Novruzu". Azərbaycan xalq rəqsi |
| 20 | 1.1.3., 2.1.3., 3.2.1. | | Musiqi dili | 1 | 1. "Qırmızı şar". Ağabacı Rzayeva, Cahangir Məmmədov<br>2. "Novruzu". Azərbaycan xalq rəqsi |
| Kiçik summativ qiymətləndirmə | | | | 1 | |
| 21 | 1.1.2., 2.1.1., 3.3.2. | 6. Musiqidə məzmun və forma | Musiqidə məzmun | 1 | 1. "Zəfər bizimdir". Şəfiqə Axundova, Abdulla Şaiq<br>2. Azərbaycan Respublikasının Dövlət Himni. Üzeyir Hacıbəyli, Əhməd Cavad |
| 22 | 2.1.3., 3.1.2. | | Musiqi obrazları | 1 | 1. "Nənəm evdə qalıb tək". Oqtay Zülfüqarov<br>2. "Şəlalə". Azərbaycan xalq rəqsi |
| 23 | 1.2.3., 3.3.2. | | Birhissəli musiqi əsərləri | 1 | 1. "Nənəm evdə qalıb tək". Oqtay Zülfüqarov |
| 24 | 1.2.3., 2.1.3. | | İkihissəli musiqi əsərləri | 1 | 1. "Çal, oyna!". Azərbaycan xalq mahnısı |
| 25 | 1.2.3., 3.2.3. | | Üçhissəli musiqi əsərləri | 1 | 1. "Döyüşçülər marşı". Üzeyir Hacıbəyli, Səməd Vurğun<br>2. "Çal, oyna!". Azərbaycan xalq mahnısı |
| Kiçik summativ qiymətləndirmə | | | | 1 | |
| 26 | 2.1.1., 3.1.2. | 7. Konsert zalında | Bəstəkar-ifaçı-dinləyici | 1 | 1. "Yaxşı otur, yaxşı dur!" Ağabacı Rzayeva, İsmayıl Soltan |
| 27 | 1.2.1., 2.1.1. | | Afişa | 1 | 1. "Rəngbərəng afişa". Oqtay Zülfüqarov, Teymur Elçin |
| 28 | 2.1.3., 3.1.1. | | Konsertə hazırlıq | 1 | 1. Afişaya daxil olunan musiqi əsərləri |
| 29 | 2.1.3., 3.2.3. | | Bayram konserti | 1 | 1. "Rəngbərəng afişa". Oqtay Zülfüqarov, Teymur Elçin<br>2. Afişaya daxil olunan musiqi əsərləri |
| Kiçik summativ qiymətləndirmə | | | | 1 | |

# DƏRSLƏRİN GÜNDƏLİK PLANLAŞDIRILMASI

## I BÖLMƏ Mahnı janrı

### 1-ci dərs

| | |
|---|---|
| Mövzu: | **Vətənpərvər mahnılar** |
| Standart: | 1.1.1., 2.1.1., 2.1.3. |
| Məqsəd: | 1. Bəstəkar Üzeyir Hacıbəyli haqqında qısa məlumat verir.<br>2. Azərbaycan Respublikasının Dövlət Himninin və "Bayram günü" mahnısının xarakterini müəyyən edir.<br>3. Azərbaycan Respublikasının Dövlət Himnini xarakterinə uyğun ifa edir. |
| İnteqrasiya: | Azərb.d.: 1.2.1., H.b.: 3.2.1. |
| İş forması: | kollektiv, cütlər, fərdi |
| İş üsulu: | müzakirə, dinləmə, mahnıoxuma, uyğunlaşdırma, dərsliklə iş |
| Resurs: | "Mahnının ifa qaydaları" və "Musiqi əsərinin dinləmə qaydaları" (dərslik, səh. 5), Azərbaycan Respublikasının Dövlət Himni və "Bayram günü" mahnısının videoçarxları və ya səsyazmaları |

Dərsin gedişi:

#### I. Motivasiya

Müəllim "Musiqi əsərinin dinləmə qaydaları"nı (dərslik, səh. 5) şagirdlərin yadına salır. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilir. Şagirdlər himni ayaq üstə dinləyirlər. Sonra müəllim sinfə suallarla müraciət edir:

– Himni dinləyərkən sizdə hansı hisslər yarandı? *(Şagirdlərin cavabları dinlənilir.)*

***Tədqiqat sualı:*** Niyə Vətən haqqında mahnılar bizə əzizdir? *(Şagirdlərin fərziyyələri dinlənilir.)*

#### II. Fəaliyyət

Müəllim şagirdlərə vətənpərvər mahnılar haqqında qısa məlumat verir (dərslik, səh. 6). "Mahnının ifa qaydaları" yada salınır və vokal məşqi keçirilir. Şagirdlər Azərbaycan Respublikasının Dövlət Himnini ifa edirlər. Sonra müəllim şagirdlərin diqqətini xarakteri bildirən sözlərə (*dinc, sehrli, təntənəli, zərif, vətənpərvər, cəsarətli, həzin)* yönəldir (dərslik, səh. 6).

***$T_1$*** *(cütlərlə iş): Verilmiş sözlərdən himnin xarakterinə uyğun olanları seçin.*

Sonra seçilmiş sözlərin himnin xarakterinə uyğunluğu müzakirə olunur.

Müəllim şagirdlərə Üzeyir Hacıbəyli haqqında qısa məlumat verir və onların diqqətini bəstəkar haqqında mətnə yönəldir (dərslik, səh. 7).

*T*$_2$ *(fərdi iş): Düzgün cavabları seçin.*
- *Üzeyir Hacıbəylinin musiqisi milli-mənəvi sərvətimizdir.*
- *"Bayram günü" Azərbaycan xalq mahnısıdır.*
- *Azərbaycan Respublikası Dövlət Himninin bəstəkarı Üzeyir Hacıbəylidir.*

Sonra şagirdlərin bəstəkar haqqında seçdikləri cavablar dinlənilir.

"Musiqi əsərinin dinləmə qaydaları" (dərslik, səh. 5) şagirdlərə xatırladılır. Müəllim musiqisi Üzeyir Hacıbəyli, sözləri Mirmehdi Seyidzadəyə məxsus olan "Bayram günü" mahnısını səsləndirir. 3-cü tapşırığı yerinə yetirmək üçün müəllim şagirdlərin diqqətini xarakteri ifadə edən şəkillərə (dərslik, səh. 7) yönəldir.

*T*$_3$ *(cütlərlə iş): "Bayram günü" mahnısının xarakterinə uyğun olan şəkli seçin.*

Cütlərin seçdikləri şəklin mahnının xarakterinə uyğunluğu müzakirə olunur.

### III. Ümumiləşdirmə və refleksiya

Müəllim suallar verir və şagirdlər onları cavablandırırlar: *Bugünkü dərsimizin mövzusu nə idi? Hansı musiqi nümunələri ilə tanış oldunuz? Dərsdə hansı işləri gördünüz? Dinlədiyiniz mahnılar sizdə hansı hissləri oyatdı?*

## 2-ci dərs

| | |
|---|---|
| **Mövzu:** | **Əmək mahnıları** |
| **Standart:** | 1.1.1., 2.1.3., 3.1.1. |
| **Məqsəd:** | 1. Bəstəkar Ağabacı Rzayeva haqqında qısa məlumat verir.<br>2. Əmək haqqında mahnıları xarakterinə uyğun ifa edir.<br>3. "Mişar" mahnısını müəllimin göstərişi ilə oxuyur. |
| **İnteqrasiya:** | Azərb.d.: 2.2.5. |
| **İş forması:** | kollektiv, kiçik qruplar, fərdi |
| **İş üsulu:** | müzakirə, dinləmə, mahnıoxuma, modelləşdirmə, dərsliklə iş |
| **Resurs:** | "Mahnının ifa qaydaları" və "Musiqi əsərinin dinləmə qaydaları" (dərslik, səh. 5), "Mişar" və "Sabahın ustaları" mahnılarının videoçarxları və ya səsyazmaları, əmək növünə görə kartlar (*bağban, əkinçi, dərzi, çoban, xarrat, aşpaz*) |

**Dərsin gedişi:**

### I. Motivasiya

Müəllim şagirdlərin diqqətini dərslikdəki əmək mövzusunda olan şəklə (dərslik, səh. 8) yönəldərək onun ətrafında söhbət aparır və şagirdlərə suallarla müraciət edir:

– Uşaqlar, iş görəndə insanların mahnı oxuduğunu və ya musiqi dinləməsini müşahidə etmisiniz? *(Şagirdlərin cavabları dinlənilir.)*

***Tədqiqat sualı:*** Əmək mahnıları nə üçün ifa olunur? *(Şagirdlərin fərziyyələri dinlənilir.)*

## II. Fəaliyyət

Müəllim şagirdlərə əmək mahnıları haqqında qısa məlumat verir (dərslik, səh. 8). "Musiqi əsərinin dinləmə qaydaları" (dərslik, səh. 5) şagirdlərə xatırladılır. Musiqisi Ağabacı Rzayevaya, sözləri Hüseyn Abbaszadəyə məxsus olan "Sabahın ustaları" mahnısı səsləndirilir və şagirdlərin təəssüratları dinlənilir. Sonra müəllim sinfi kiçik qruplara bölür və hər qrupa üzərində bir əmək növünün təsviri olan kart paylayır (*bağban, əkinçi, dərzi, çoban, xarrat, aşpaz*). Şagirdlər 1-ci tapşırığı əvvəl musiqisiz, sonra isə musiqi sədaları altında yerinə yetirirlər.

***T₁*** *(kiçik qruplarla iş): Musiqisiz və musiqi sədaları altında əməyin müxtəlif növlərini hərəkətlərlə göstərin.*

"Sabahın ustaları" mahnısı təkrar səsləndirilir. Sonra tapşırığın icrası zamanı şagirdlərin yerinə yetirdikləri hərəkətlərin (musiqisiz və musiqi ilə) fərqi müzakirə olunur.

Müəllim şagirdlərə dirijorluq jestlərinə aid bir neçə əl hərəkətini – "diqqət", "nəfəs al", "ifaya başla", "ifanı bitir" (dərslik, səh. 9) nümayiş etdirir. "Mahnının ifa qaydaları" yada salınır və vokal məşqi keçirilir. Sonra müəllim musiqisi Ağabacı Rzayevaya, sözləri Cahangir Məmmədova məxsus olan "Mişar" mahnısını öyrədir.

***T₂*** *(fərdi iş): "Mişar" mahnısını müəllimin dirijorluğu ilə ifadəli oxuyun.*

Sonra "Mişar" mahnısında əməyin təsviri haqqında şagirdlərin fikirləri müzakirə olunur.

Müəllim şagirdlərə Ağabacı Rzayeva haqqında qısa məlumat verir.

***T₃*** *(kiçik qruplarla iş): Ağabacı Rzayevaya məxsus olmayan mahnını seçin.*

*a) "İdman"*

*b) "Sabahın ustaları"*

*c) "Mişar"*

Sonra bəstəkar Ağabacı Rzayevanın mahnıları haqqında qrupların fikirləri dinlənilir.

## III. Ümumiləşdirmə və refleksiya

Müəllim suallar verir və şagirdlər onları cavablandırırlar: *Bugünkü dərsimizin mövzusu nə idi? Hansı musiqi nümunələri ilə tanış oldunuz? Dərsdə hansı işləri gördünüz? İş görərkən bildiyiniz hansı mahnını oxuyardınız?*

## 3-cü dərs

**Mövzu:** ***Laylalar***
**Standart:** 1.1.1., 2.1.1., 3.1.1.
**Məqsəd:** 1. Bəstəkar Oqtay Zülfüqarov haqqında qısa məlumat verir.
2. Laylanın emosional xarakterini izah edir.
3. “Laylay” mahnısını müəllimin göstərişi ilə oxuyur.
**İnteqrasiya:** Azərb.d.: 2.2.5.
**İş forması:** kollektiv, kiçik qruplar, fərdi
**İş üsulu:** müzakirə, dinləmə, mahnıoxuma, modelləşdirmə, dərsliklə iş
**Resurs:** “Mahnının ifa qaydaları” və “Musiqi əsərinin dinləmə qaydaları” (dərslik, səh. 5), “Laylay” və “Ana laylası” mahnılarının videoçarxları və ya səsyazmaları, gəlincik və yumşaq oyuncaqlar

**Dərsin gedişi:**

### I. Motivasiya

Müəllim mövzu ilə əlaqədar səhnəcik qurur. O, qucağında gəlinciyi yellədərək onu yatızdırmağa çalışır. Sonra müəllim sinfə suallarla müraciət edir:

– Körpəni hansı mahnı ilə yatızdırmaq olar? *(Şagirdlərin cavabları dinlənilir.)*

***Tədqiqat sualı:*** Nə üçün körpələri yatırdarkən laylalar oxunur? *(Şagirdlərin fərziyyələri dinlənilir.)*

### II. Fəaliyyət

Şagirdlərə “Musiqi əsərinin dinləmə qaydaları” (dərslik, səh. 5) xatırladılır. Musiqisi Oqtay Zülfüqarova, sözləri Rəfiq Zəkaya məxsus olan “Ana laylası” mahnısı səsləndirilir və şagirdlərin mahnı haqqında təəssüratları dinlənilir. Sonra müəllim şagirdlərin diqqətini xarakteri bildirən sözlərə (*təntənəli, həzin, şən, sehrli, cəsarətli, zarafatyana)* yönəldir (dərslik, səh. 10).

***T*** *1 (fərdi iş): Verilmiş sözlərdən “Ana laylası”mahnısının xarakterinə uyğun olanı seçin.*

Sonra seçilmiş sözlərin mahnının xarakterinə uyğunluğu müzakirə olunur. Müəllim şagirdlərə laylalar haqqında qısa məlumat verir (dərslik, səh. 10).

Dirijorluq jestlərinə aid tanış əl hərəkətləri (“diqqət”, “nəfəs al”, “ifaya başla”, “ifanı bitir”), “Mahnının ifa qaydaları” şagirdlərin yadına salınır və vokal məşqi keçirilir. Müəllim musiqisi Oqtay Zülfüqarova, sözləri Teymur Elçinə məxsus olan “Laylay” mahnısını öyrədir.

$T_2$ *(fərdi iş): "Laylay" mahnısını müəllimin dirijorluğu ilə ifadəli oxuyun.*

Sonra şagirdlərin mahnının xarakteri haqqında təəssüratları müzakirə olunur.

Müəllim şagirdlərə bəstəkar Oqtay Zülfüqarov haqqında qısa məlumat verir (dərslik, səh. 11). Sonra sinif kiçik qruplara bölünür. Şagirdlər dərsdə səslənən mahnılara və bəstəkar haqqında verilən mətnə əsasən (dərslik, səh. 11) 3-cü tapşırığı yerinə yetirirlər.

$T_3$ *(kiçik qruplarla iş): Oqtay Zülfüqarovun mahnılarının adlarını tapmaq üçün krossvordu həll edin.*

*1. Sağlamlıq üçün edilən hərəkətlər*
*2. Körpələri yatızdırarkən oxunan nağmələr*
*3. Ad günündə insanların bir yerə yığışması*




Sonra bəstəkar Oqtay Zülfüqarovun mahnıları haqqında qrupların fikirləri dinlənilir.

### III. Ümumiləşdirmə və refleksiya

Müəllim suallar verir və şagirdlər onları cavablandırırlar: *Bugünkü dərsimizin mövzusu nə idi? Hansı musiqi nümunələri ilə tanış oldunuz? Dərsdə hansı işləri gördünüz? Dinlədiyiniz laylaları siz kimin üçün oxuyardınız?*

## 4-cü dərs

| | |
|---|---|
| **Mövzu:** | ***Mahnı-oyunlar*** |
| **Standart:** | 2.1.1., 2.1.3. |
| **Məqsəd:** | 1. Musiqi dinlədikdə yaranan emosiyaları hərəkətlərlə ifadə edir.<br>2. Mahnı-oyunları xarakterinə uyğun ifa edir. |
| **İnteqrasiya:** | H.b.: 1.3.1., F.t.: 2.1.3. |
| **İş forması:** | kollektiv, kiçik qruplar |
| **İş üsulu:** | müzakirə, dinləmə, mahnıoxuma, oyun, dərsliklə iş |
| **Resurs:** | "Mahnının ifa qaydaları" və "Musiqi əsərinin dinləmə qaydaları" (dərslik, səh. 5), "İdman" və "Bənövşə" mahnılarının videoçarxları və ya səsyazmaları, idman növlərinin (*üzgüçülük, ağırlıqqaldırma, qaçış, boks*) təsvirləri olan kartlar, qutu |

## Dərsin gedişi:

### I. Motivasiya

Müəllim "Musiqi əsərinin dinləmə qaydaları"nı (dərslik, səh. 5) şagirdlərin yadına salır və musiqisi Oqtay Zülfüqarova, sözləri Səttar Zərdablıya məxsus olan "İdman" mahnısını səsləndirir. Sonra sinfə suallarla müraciət edir:

– Səslənən musiqi hansı janra aiddir? *(Şagirdlərin cavabları dinlənilir.)*

***Tədqiqat sualı:*** Mahnını oyun kimi necə göstərmək olar? *(Şagirdlərin fərziyyələri dinlənilir.)*

### II. Fəaliyyət

"Mahnının ifa qaydaları" (dərslik, səh. 5) şagirdlərə xatırladılır və vokal məşqi keçirilir. Sonra musiqisi Oqtay Zülfüqarova, sözləri Səttar Zərdablıya məxsus olan "İdman" mahnısı öyrədilir. Müəllim müxtəlif idman növlərinin (*üzgüçülük, qaçış, boks, ağırlıqqaldırma*) təsvirləri olan kartları (dərslik, səh. 13) qutuya yerləşdirir. Sinif kiçik qruplara bölünür. Müəllim hər qrupa növbə ilə yaxınlaşaraq qrup üzvünə qutudan bir kartı götürməyi təklif edir. Hər qrup kartdakı idman növünə aid edəcəyi əl hərəkətlərini müəyyənləşdirir. Müəllim "Musiqili idman" adlı oyunun qaydalarını şagirdlərə izah edir.

**"Musiqili idman" mahnı-oyununun qaydaları:** "İdman" mahnısı ifa olunur. Oyun iştirakçıları mahnıdakı "*bir*", "*iki*", "*üç*" və "*dörd*" saylarını oxuduqda kartda verilmiş idman növünün hərəkətlərini icra edirlər.

***$T_1$*** *(kiçik qruplarla iş): "İdman" mahnısını oxuyarkən kartda verilmiş idman hərəkətlərini yerinə yetirin.*

"İdman" mahnısı təkrar ifa olunur. Sonra mahnının oyun kimi necə göstərdikləri şagirdlərlə müzakirə olunur. Daha sonra müəllim şagirdlərə mahnı-oyunlar haqqında qısa məlumat verir (dərslik, səh. 12).

"Bənövşə" Azərbaycan uşaq xalq mahnısı səsləndirilir. Sonra şagirdlərin mahnı haqqında təəssüratları dinlənilir. Müəllim şagirdlərə "Bənövşə" adlı oyunun qaydalarını izah edir.

**"Bənövşə" mahnı-oyununun qaydaları:** "Bənövşə" mahnısı səsləndirilir. Oyun iştirakçıları mahnıdakı "*açıl*", "*gizlən*", "*dikəl*" və "*yığıl*" sözlərini eşitdikcə şəkillərdə verilmiş müvafiq hərəkətləri (dərslik, səh. 13) icra edirlər.

***$T_2$*** *(kollektiv iş): "Bənövşə" mahnı-oyununun hərəkətlərini yerinə yetirin.*

"Bənövşə" uşaq xalq mahnısı təkrar səsləndirilir.

Sonra mahnının oyun kimi göstərilməsi şagirdlərlə müzakirə olunur.

### III. Ümumiləşdirmə və refleksiya

Müəllim suallar verir və şagirdlər onları cavablandırırlar: *Bugünkü dərsimizin mövzusu nə idi? Hansı musiqi nümunələri ilə tanış oldunuz? Dərsdə hansı işləri gördünüz? Hansı mahnıları oyun kimi göstərərdiniz?*

# 5-ci dərs

| | |
|---|---|
| Mövzu: | **İdman marşları** |
| Standart: | 1.1.1., 2.1.2. |
| Məqsəd: | 1. Bəstəkar Musa Mirzəyev haqqında qısa məlumat verir.<br>2. Marşların melodiyasına sadə vasitələrlə ritm tutur. |
| İnteqrasiya: | Azərb.d.: 4.1.7., F.t.: 2.1.3. |
| İş forması: | kollektiv, kiçik qruplar, fərdi |
| İş üsulu: | müzakirə, dinləmə, mahnıoxuma, ritmika, oyun, açar sözlər, dərsliklə iş |
| Resurs: | "Mahnının ifa qaydaları" və "Musiqi əsərinin dinləmə qaydaları" (dərslik, səh. 5), "Marş" pyesinin, "İdman" və "Gənc idmançılar marşı" mahnılarının videoçarxları və ya səsyazmaları, iş vərəqləri |

Dərsin gedişi:

## I. Motivasiya

Müəllim sinfə müraciət edir: "*Təsəvvür edin ki, idman meydançasındasınız. Keçdiyimiz "İdman" mahnısı səslənir və siz yerinizdə addımlayırsınız. Çalışın, addımlarınız musiqiyə uyğun olsun*". Musiqisi Oqtay Zülfüqarova, sözləri Səttar Zərdablıya məxsus olan "İdman" mahnısı səsləndirilir və şagirdlər musiqi sədaları altında yerlərində addımlayırlar. Sonra müəllim sinfə suallarla müraciət edir:

– Mahnı səslənərkən etdiyiniz hərəkətlər sizə hansı musiqi janrını xatırlatdı? *(Şagirdlərin cavabları dinlənilir.)*

***Tədqiqat sualı:*** İdman və marş musiqisini necə əlaqələndirmək olar? *(Şagirdlərin fərziyyələri dinlənilir.)*

## II. Fəaliyyət

Müəllim idman marşları haqqında qısa məlumat verir (dərslik, səh. 14). "Mahnının ifa qaydaları"nı (dərslik, səh. 5) şagirdlərə xatırladır və vokal məşqi keçirir. Sonra müəllim şagirdlərə musiqisi Musa Mirzəyevə, sözləri Hikmət Ziyaya məxsus olan "Gənc idmançılar marşı" mahnısını öyrədir. Sinif 4 qrupa bölünür və müəllim şagirdlərə "İdmançılar marşı" adlı oyunun qaydalarını izah edir.

**"İdmançılar marşı" oyununun qaydaları:** Müəllim masanın üzərinə içində bir neçə kart olan qutu qoyur. Hər kartın üzərində idman növlərindən birinin (*stolüstü tennis, xizək yarışmaları, voleybol, atçılıq*) şəkli təsvir olunub. Hər qrupdan bir nü-

mayəndə növbə ilə qutudan bir kart götürür. Qruplar kartdakı idman növünə görə (dərslik, səh. 15) hərəkətlər edərək mahnıdan bir parçanı ardıcıllıqla oxuyurlar (I qrup – I bəndi, II qrup – II bəndi, III və IV qruplar – nəqəratı).

***T1** (kiçik qruplarla iş): "Gənc idmançılar marşı" mahnısının musiqisinə uyğun kartdakı idman növünü hərəkətlərlə təsvir edin.*

"Gənc idmançılar marşı" mahnısı təkrar səsləndirilir. Sonra qrupların icra etdikləri idman hərəkətlərinin marş musiqisi ilə əlaqəsi müzakirə olunur.

Müəllim şagirdlərə bəstəkar Musa Mirzəyev haqqında qısa məlumat verir (dərslik, səh. 15). Hər qrupa üzərində açar sözlər (*Musa Mirzəyev, bəstəkar, marş, idman, xarakter, mahnı, milli ruh*) yazılmış iş vərəqi paylanılır.

***T2** (kiçik qruplarla iş): Verilmiş sözlərdən istifadə edib cümlə qurun.*

Sonra qrupların bəstəkar Musa Mirzəyev haqqında qurduğu cümlələr dinlənilir.

Müəllim "Musiqi əsərinin dinləmə qaydaları"nı (dərslik, səh. 5) şagirdlərin yadına salır və Musa Mirzəyevin "Marş" pyesini səsləndirir. Onun pyes haqqında təəssüratları dinlənilir. 3-cü tapşırığı yerinə yetirmək üçün müəllim şagirdlərə idman yerişini nümayiş etdirir (*sol-sağ, sol-sağ*).

***T3** (fərdi iş): "Marş" pyesinin musiqisinə uyğun addımlayın.*

"Marş" pyesi təkrar səsləndirilir. Sonra şagirdlərin yerinə yetirdikləri hərəkətlərin pyesin musiqisi ilə əlaqəsi müzakirə olunur.

### III. Ümumiləşdirmə və refleksiya

Müəllim suallar verir və şagirdlər onları cavablandırırlar: *Bugünkü dərsimizin mövzusu nə idi? Hansı musiqi nümunələri ilə tanış oldunuz? Dərsdə hansı işləri gördünüz? Dərsdə dinlədiyiniz hansı marşın sədaları altında idman edərdiniz?*

## 6-cı dərs

| | |
|---|---|
| **Mövzu:** | **Yürüş marşları** |
| **Standart:** | 1.1.1., 2.1.3., 3.2.2. |
| **Məqsəd:** | 1. Bəstəkar Səid Rüstəmov haqqında qısa məlumat verir.<br>2. "Vətən" mahnısını xarakterinə uyğun ifa edir.<br>3. Yürüş marşlarını zərb musiqi alətlərində müşayiət edir. |
| **İnteqrasiya:** | F.t.: 2.1.1. |
| **İş forması:** | kollektiv, kiçik qruplar, fərdi |
| **İş üsulu:** | müzakirə, dinləmə, mahnıoxuma, musiqi alətlərində çalma, "şaxələndirmə", dərsliklə iş |
| **Resurs:** | "Mahnının ifa qaydaları" və "Musiqi əsərinin dinləmə qaydaları" (dərslik, səh. 5), "Vətən" mahnısının və zərb musiqi alətlərində marşın ritminin videoçarxları və ya səsyazmaları, sıra ilə addımlayan uşaqların təsviri olan şəkil, zərb musiqi alətləri (oyuncaq barabanlar), iş vərəqləri |

**Dərsin gedişi:**

## I. Motivasiya

Müəllim lövhədə sıra ilə addımlayan uşaqların təsviri olan şəkli yerləşdirir və zərb musiqi alətlərində çalınan marşın ritmini səsləndirir. Sonra şagirdlərə suallarla müraciət edir:

– Dinlədiyiniz səsyazmada hansı musiqi alətlərini tanıdınız? *(Şagirdlərin cavabları dinlənilir.)*

***Tədqiqat sualı:*** Niyə yürüş marşlarının ifasında musiqi alətlərindən istifadə olunur? *(Şagirdlərin fərziyyələri dinlənilir.)*

## II. Fəaliyyət

Müəllim "Mahnının ifa qaydaları"nı (dərslik, səh. 5) şagirdlərin yadına salır və vokal məşqi keçirir. Sonra musiqisi Səid Rüstəmova, sözləri Süleyman Rüstəmə məxsus olan "Vətən" mahnısı öyrədilir.

*$T_1$ (fərdi iş): "Vətən" mahnısını xarakterinə uyğun ifa edin.*

Sonra "Vətən" mahnısının marş xarakteri şagirdlərlə müzakirə olunur.

"Musiqi əsərinin dinləmə qaydaları" (dərslik, səh. 5) şagirdlərə xatırladılır və zərb musiqi alətləri (oyuncaq barabanlar) paylanılır. (Baraban olmadığı halda şagirdlər çubuq və ya qələmlə masaya zərbələr vura bilərlər.)

*$T_2$ (fərdi iş): "Vətən" mahnısını barabanlarda müşayiət etməklə yerinizdə addımlayın.*

"Vətən" mahnısı təkrar səsləndirilir və bu zaman mahnının ritminə uyğun barabanlarda çalınır. (Müəllim giriş hissəni tək, bəndlər və nəqəratı isə şagirdlərlə birgə ifa edir.) Sonra tapşırığın icrası zamanı baraban zərbələrinin şagirdlərin yerinə yetirdikləri hərəkətlərə təsiri müzakirə olunur.

Müəllim sinfə bəstəkar Səid Rüstəmov haqqında qısa məlumat verir (dərslik, səh. 17). Sinif qruplara bölünür. Hər qrupa mərkəzində *Səid Rüstəmov* sözləri yazılmış iş vərəqi paylanılır və *şaxələndirmə* üsulunun qaydaları izah olunur.




*$T_3$ (kiçik qruplarla iş): Səid Rüstəmov haqqında məlumatları gülün ləçəklərində qeyd edin.*

Sonra bəstəkar haqqında qrupların qeyd etdikləri məlumatlar dinlənilir.

### III. Ümumiləşdirmə və refleksiya

Müəllim suallar verir və şagirdlər onları cavablandırırlar: *Bugünkü dərsimizin mövzusu nə idi? Hansı musiqi nümunələri ilə tanış oldunuz? Dərsdə hansı işləri gördünüz? Yürüş zamanı barabanı hansı musiqi aləti ilə əvəz edərdiniz?*

## 7-ci dərs

| | |
|---|---|
| **Mövzu:** | **Təntənəli marşlar** |
| **Standart:** | 2.1.3., 3.2.2. |
| **Məqsəd:** | 1. "Vətən" mahnısını təntənəli ifa edir.<br>2. Təntənəli marşları zərb musiqi alətlərində müşayiət edir. |
| **İnteqrasiya:** | F.t.: 2.1.3. |
| **İş forması:** | kollektiv, kiçik qruplar |
| **İş üsulu:** | müzakirə, dinləmə, mahnıoxuma, musiqi alətlərində çalma, modelləşdirmə, dərsliklə iş |
| **Resurs:** | "Mahnının ifa qaydaları" və "Musiqi əsərinin dinləmə qaydaları" (dərslik, səh. 5), Zəfər paradının videoçarxı, "Vətən" və "Ey Vətən" mahnılarının videoçarxları və ya səsyazmaları, zərb musiqi alətləri, Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə aid tanıtım lövhələri |

**Dərsin gedişi:**

### I. Motivasiya

Müəllim Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradının videoçarxını nümayiş etdirir. Sonra şagirdlərə suallarla müraciət edir:

– Zəfər paradında səslənən marşı təntənəli adlandırmaq olar? *(Şagirdlərin cavabları dinlənilir.)*

***Tədqiqat sualı:*** Marş musiqisinin təntənəli səslənməsi üçün onu necə ifa etmək olar? *(Şagirdlərin fərziyyələri dinlənilir.)*

### II. Fəaliyyət

"Musiqi əsərinin dinləmə qaydaları" (dərslik, səh. 5) şagirdlərə xatırladılır və musiqisi Üzeyir Hacıbəyliyə, sözləri Səməd Vurğuna məxsus olan "Ey Vətən" mahnısı

səsləndirilir. Şagirdlərin mahnı haqqında fikirləri dinlənilir. Sinif kiçik qruplara bölünür. 1-ci tapşırığı yerinə yetirmək üçün müəllim hər qrupa zərb musiqi alətlərini (*nağara, zəng, baraban*) paylayır və şagirdlərin diqqətini sxemə yönəldir (dərslik, səh. 19).

***T₁*** *(kiçik qruplarla iş): "Ey Vətən" mahnısını cədvələ uyğun zərb musiqi alətlərində müşayiət edin.*

"Ey Vətən" mahnısı təkrar səsləndirilir. Sonra şagirdlərlə zərb musiqi alətlərində müşayiətin mahnının xarakterinə təsiri müzakirə olunur.

Müəllim şagirdlərə təntənəli marşlar haqqında qısa məlumat verir (dərslik, səh. 18). Musiqisi Səid Rüstəmova, sözləri Süleyman Rüstəmə məxsus olan "Vətən" mahnısının I bənd və nəqəratı səsləndirilir, mahnının xarakteri haqqında şagirdlərin təəssüratları dinlənilir. "Mahnının ifa qaydaları" şagirdlərin yadına salınır və vokal məşqi keçirilir. Şagirdlərə üzərində Azərbaycanın işğaldan azad edilən rayonlarının adları yazılmış tanıtım lövhələri paylanılır. Sonra müəllim sinif otağında şagirdlərlə birlikdə yürüş edərək "kiçik parad" keçirir.

***T₂*** *(kollektiv iş): Yürüş zamanı Azərbaycanın işğaldan azad edilmiş rayonlarının adları olan tanıtım lövhələri ilə "Vətən" mahnısını təntənəli oxuyun.*

Sonra mahnının təntənəli ifası şagirdlərlə müzakirə edilir.

## III. Ümumiləşdirmə və refleksiya

Müəllim suallar verir və şagirdlər onları cavablandırırlar: *Bugünkü dərsimizin mövzusu nə idi? Hansı musiqi nümunələri ilə tanış oldunuz? Dərsdə hansı işləri gördünüz? Dərsdə səslənən musiqi sizdə hansı hisslər yaratdı?*

## 8-ci dərs

**Mövzu:** **Əmək rəqsləri**
**Standart:** 1.1.1., 2.1.3.
**Məqsəd:** 1. Bəstəkar Şəfiqə Axundova haqqında qısa məlumat verir.
2. "Pambığı" Azərbaycan xalq rəqsini və "Üzümçülər" mahnısını xarakterinə uyğun ifa edir.
**İnteqrasiya:** Azərb.d.: 1.2.1., F.t.: 4.1.1.
**İş forması:** kollektiv, kiçik qruplar, fərdi
**İş üsulu:** müzakirə, dinləmə, mahnıoxuma, rəqsetmə, dərsliklə iş
**Resurs:** "Mahnının ifa qaydaları" və "Musiqi əsərinin dinləmə qaydaları" (dərslik, səh. 5), "Pambığı" Azərbaycan xalq rəqsinin və "Üzümçülər" mahnısının videoçarxları və ya səsyazmaları, "Görüş" filmindən bir parça, "Rəqs elementləri" sxemi (dərslik, səh. 20), iş vərəqləri
**Dərsin gedişi:**

### I. Motivasiya

"Görüş" filmindən bir parça nümayiş etdirilir. Sonra müəllim şagirdlərə suallarla müraciət edir:

– Baxdığınız videoçarxda adam nə ilə məşğul idi? *(Şagirdlərin cavabları dinlənilir.)*

***Tədqiqat sualı:*** Müxtəlif əmək növlərini rəqsdə necə göstərmək olar? *(Şagirdlərin fərziyyələri dinlənilir.)*

### II. Fəaliyyət

Müəllim şagirdlərə əmək rəqsləri haqqında qısa məlumat (dərslik, səh. 20) verir. Sonra "Musiqi əsərinin dinləmə qaydaları" (dərslik, səh. 5) şagirdlərə xatırladılır. "Pambığı" Azərbaycan xalq rəqsi səsləndirilir və rəqsin xarakteri haqqında şagirdlərin təəssüratları dinlənilir. Müəllim şagirdlərin diqqətini "Rəqs elementləri" sxeminə yönəldir (dərslik, səh. 20) və həmin elementləri öyrədir.

*T1 (kollektiv iş): "Pambığı" rəqsini xarakterinə uyğun ifa edin.*

"Pambığı" Azərbaycan xalq rəqsi təkrar səsləndirilir. Sonra tapşırığın icrası zamanı şagirdlərin yerinə yetirdikləri rəqs hərəkətləri müzakirə olunur.

Müəllim bəstəkar Şəfiqə Axundova haqqında qısa məlumat verir və şagirdlərin diqqətini bəstəkar haqqında mətnə yönəldir (dərslik, səh. 21). Sonra sinif kiçik qrup-

lara bölünür və hər qrupa üzərində *yazıb, Şəfiqə Axundova, bəstəkar, əsərlər, uşaqlar* sözləri yazılmış iş vərəqləri paylanılır.

***T₂** (kiçik qruplarla iş): Verilmiş sözlərdən istifadə edib cümlə qurun.*

Sonra qrupların bəstəkar haqqında qurduğu cümlələr dinlənilir.

Müəllim "Mahnının ifa qaydaları"nı (dərslik, səh. 5) şagirdlərin yadına salır və vokal məşqi keçirir. Sonra musiqisi Şəfiqə Axundovaya, sözləri Cavad Cavadlıya məxsus olan "Üzümçülər" mahnısı öyrədilir.

***T₃** (kollektiv və fərdi iş): "Üzümçülər" mahnısını oxuyarkən üzüm yığımını rəqs hərəkətləri ilə göstərin.*

"Üzümçülər" mahnısı təkrar səsləndirilir. Sonra mahnının ifası zamanı şagirdlərin yerinə yetirdikləri rəqs hərəkətləri müzakirə olunur.

### III. Ümumiləşdirmə və refleksiya

Müəllim suallar verir və şagirdlər onları cavablandırırlar: *Bugünkü dərsimizin mövzusu nə idi? Hansı musiqi nümunələri ilə tanış oldunuz? Dərsdə hansı işləri gördünüz? Daha hansı əmək növlərini rəqsdə təsvir edərdiniz?*

## 9-cu dərs

| | |
|---|---|
| **Mövzu:** | **Məzəli rəqslər** |
| **Standart:** | 2.1.3. |
| **Məqsəd:** | 1. Rəqs hərəkətləri ilə musiqi nümunələrinin məzəli xarakterini göstərir. |
| **İnteqrasiya:** | F.t.: 4.1.1. |
| **İş forması:** | kollektiv, böyük və kiçik qruplar |
| **İş üsulu:** | müzakirə, dinləmə, rəqsetmə, modelləşdirmə, dərsliklə iş |
| **Resurs:** | "Musiqi əsərinin dinləmə qaydaları" (dərslik, səh. 5), "Yumoreska" fortepiano pyesi və "Xurcun" Azərbaycan xalq rəqslərinin videoçarxları və ya səsyazmaları, heyvan təsviri olan (*dovşan, ayı, şir, tülkü*) kartlar |

**Dərsin gedişi:**

### I. Motivasiya

Lövhədə "məzəli" sözü yazılır. Müəllim *məzəli* sözünün mənasını açıqlayır (*məzəli – gülməli, maraqlı*). Sonra sinfə suallarla müraciət edir:

– Hansı məzəli əhvalatı danışa bilərdiniz? *(Şagirdlərin cavabları dinlənilir.)*

***Tədqiqat sualı:*** Məzəli əhvalatı rəqsdə necə təsvir etmək olar? *(Şagirdlərin fərziyyələri dinlənilir.)*

## II. Fəaliyyət

Müəllim şagirdlərə məzəli rəqslər haqqında qısa məlumat verir (dərslik, səh. 22). "Musiqi əsərinin dinləmə qaydaları" (dərslik, səh. 5) şagirdlərə xatırladılır. "Xurcun" Azərbaycan xalq rəqsi səsləndirilir və rəqsin xarakteri haqqında şagirdlərin təəssüratları dinlənilir. Sonra müəllim şagirdlərin diqqətini "Məzəli əhvalat" adlı mətnin təsvirlərinə yönəldir (dərslik, səh. 22-23).

***"Məzəli əhvalat"***

*Qızlar bağda meyvə dərib xurcunlarına yığırlar. Oğlanlar gizlincə boş xurcunlarını qızların dolu xurcunları ilə dəyişirlər. Qızlardan biri xurcunların dəyişdirilməsini görüb rəfiqələrini çağırır. Qızlar oğlanları rəqsə dəvət edirlər. Oğlanlar xurcunları bir kənara qoyub rəqs edirlər. Bu zaman üç qız xurcunları təkrar dəyişib rəqsə qoşulur. Sonra oğlanlar xurcunlara yaxınlaşdıqda onların boş olduğunu görürlər. Hamı bir yerdə bu əhvalata gülüb rəqsə davam edir.*

Sinif iki qrupa (qızlar və oğlanlar) bölünür və müəllim qruplara tapşırığı izah edir.

***T**1 (böyük qruplarla iş): Şəkillərdəki hadisələrin ardıcıllığını rəqs hərəkətləri ilə təsvir edin.*

"Xurcun" Azərbaycan xalq rəqsi təkrar səsləndirilir. Sonra tapşırığın icrası zamanı şagirdlərin yerinə yetirdikləri rəqs hərəkətləri müzakirə olunur.

Bəstəkar Musa Mirzəyevin "Yumoreska" pyesi səsləndirilir və əsər haqqında şagirdlərin təəssüratları dinlənilir. Sonra müəllim sinfi dörd qrupa bölür və hər qrupa bir heyvanın təsviri olan (*dovşan, ayı, şir, tülkü*) kartlar paylayır.

***T**2 (kiçik qruplara iş): Kartda təsvir olunan heyvanın "məzəli rəqsi"ni hərəkətlərlə göstərin.*

Bəstəkar Musa Mirzəyevin "Yumoreska" pyesi təkrar səsləndirilir. Sonra tapşırığın icrası zamanı qrupların "məzəli rəqsləri" müzakirə olunur.

## III. Ümumiləşdirmə və refleksiya

Müəllim suallar verir və şagirdlər onları cavablandırırlar: *Bugünkü dərsimizin mövzusu nə idi? Hansı musiqi nümunələri ilə tanış oldunuz? Dərsdə hansı işləri gördünüz? Daha hansı məzəli əhvalatı rəqsdə təsvir edərdiniz?*

# 10-cu dərs

**Mövzu:** **Qəhrəmani rəqslər**
**Standart:** 2.1.3., 3.1.1.
**Məqsəd:** 1. İfasında musiqi nümunələrinin qəhrəmani xarakterini əks etdirir.
2. "Sadiq olaq Vətənə" mahnısını müəllimin dirijorluğu ilə oxuyur.
**İnteqrasiya:** Azərb.d.: 1.2.3., F.t.: 4.1.1.
**İş forması:** kollektiv, fərdi
**İş üsulu:** müzakirə, mahnıoxuma, dinləmə, rəqsetmə, dərsliklə iş
**Resurs:** "Mahnının ifa qaydaları" və "Musiqi əsərinin dinləmə qaydaları" (dərslik, səh. 5), "Sadiq olaq Vətənə" mahnısı və "Cəngi" Azərbaycan xalq rəqsinin videoçarxları və ya səsyazmaları, "Rəqs elementləri" sxemi (dərslik, səh. 24)

**Dərsin gedişi:**

## I. Motivasiya

Müəllim şagirdlərin diqqətini lövhədə yazılmış *mübariz, cəsur, tənbəl, igid, qorxaq, iradəli, qürurlu* sözlərinə yönəldir və sinfə suallarla müraciət edir:

– Bu sözlərdən hansılar qəhrəmanların xarakterinə aiddir? *(Şagirdlərin cavabları dinlənilir.)*

***Tədqiqat sualı:*** Qəhrəmani xarakteri rəqsdə necə əks etdirmək olar? *(Şagirdlərin fərziyyələri dinlənilir.)*

## II. Fəaliyyət

Müəllim şagirdlərə qəhrəmani rəqslər haqqında qısa məlumat verir. "Musiqi əsərinin dinləmə qaydaları" (dərslik, səh. 5) şagirdlərə xatırladılır. "Cəngi" Azərbaycan xalq rəqsi səsləndirilir və rəqsin xarakteri haqqında şagirdlərin təəssüratları dinlənilir. Müəllim şagirdlərin diqqətini "Rəqs elementləri" sxeminə yönəldir (dərslik, səh. 24) və həmin elementləri öyrədir.

***T**₁ (kollektiv iş): "Cəngi" rəqsini xarakterinə uyğun ifa edin.*

"Cəngi" Azərbaycan xalq rəqsi təkrar səsləndirilir. Sonra rəqsin xarakterinə uyğun şagirdlərin yerinə yetirdikləri hərəkətlər müzakirə olunur.

Müəllim “Mahnının ifa qaydaları”nı (dərslik, səh. 5) şagirdlərin yadına salır və vokal məşqi keçirir. Sonra şagirdlərə musiqisi və sözləri Oqtay Zülfüqarova məxsus olan “Sadiq olaq Vətənə” mahnısı öyrədilir.

***T2** (kollektiv iş): “Sadiq olaq Vətənə” mahnısını müəllimin dirijorluğu ilə ifadəli oxuyun.*

Sonra “Sadiq olaq Vətənə” mahnısının xarakteri haqqında şagirdlərin təəssüratları dinlənilir.

Müəllim bildirir ki, mahnıların sədaları altında da rəqs etmək mümkündür. 3-cü tapşırığı yerinə yetirmək üçün şagirdlər mahnının xarakterinə uyğun rəqs hərəkətlərini sərbəst seçə bilərlər.

***T3** (kollektiv və fərdi iş): “Sadiq olaq Vətənə” mahnısının xarakterinə uyğun rəqs edin.*

“Sadiq olaq Vətənə” mahnısı təkrar səsləndirilir. Sonra şagirdlərin rəqsinin mahnının xarakterinə uyğunluğu müzakirə olunur.

### III. Ümumiləşdirmə və refleksiya

Müəllim suallar verir və şagirdlər onları cavablandırırlar: *Bugünkü dərsimizin mövzusu nə idi? Hansı musiqi nümunələri ilə tanış oldunuz? Dərsdə hansı işləri gördünüz? Dərsdə səslənən mahnı və rəqsi hansı tədbirlərdə ifa edərdiniz?*

## 11-ci dərs

| | |
|---|---|
| **Mövzu:** | **Mahnı, marş, rəqs** |
| **Standart:** | 1.2.1., 2.1.3. |
| **Məqsəd:** | 1. Dinlədiyi musiqi əsərinin janrını müəyyən edir.<br>2. Mahnı, marş və rəqs nümunələrini xarakterinə uyğun ifa edir. |
| **İnteqrasiya:** | Azərb.d.: 1.2.3., F.t.: 4.1.1. |
| **İş forması:** | kollektiv, kiçik qruplar |
| **İş üsulu:** | müzakirə, mahnıoxuma, dinləmə, rəqsetmə, oyun, dərsliklə iş |
| **Resurs:** | “Mahnının ifa qaydaları” və “Musiqi əsərinin dinləmə qaydaları” (dərslik, səh. 5), “Marş” pyesi, “Cəngi” Azərbaycan xalq rəqsi, “Sadiq olaq Vətənə” və Yeni il mövzusunda mahnıların video-çarxları və ya səsyazmaları, musiqi nümunələrini tanıdan şəkillər üzərində *mahnı*, *marş* və *rəqs* sözləri yazılmış üç kart |

**Dərsin gedişi:**

## I. Motivasiya

Sinif bayram əhvali-ruhiyyəsində bəzədilir. Yeni il mövzusunda mahnı səsləndirilir (seçim sərbəstdir). Müəllim musiqinin sədaları altında şagirdlərə Şaxta babanın məktubunu oxuyur:

*"Əziz uşaqlar! Qarşıdan 31 dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı gəlir. Bu münasibətlə sizi şənliyə dəvət edirəm. Şənlikdə oyun keçirək, çalaq, oxuyaq, oynayaq!"*

Sonra müəllim sinfə suallarla müraciət edir:

– Bayramlarda səslənən musiqi nümunələri hansı janrlarda olur? *(Şagirdlərin cavabları dinlənilir.)*

***Tədqiqat sualı:*** Mahnı, marş və rəqslərdə bayram əhvali-ruhiyyəsini necə ifadə etmək olar? *(Şagirdlərin fərziyyələri dinlənilir.)*

## II. Fəaliyyət

"Mahnının ifa qaydaları" və "Musiqi əsərinin dinləmə qaydaları" (dərslik, səh. 5) şagirdlərə xatırladılır. Sonra sinif kiçik qruplara bölünür. Hər qrupa üç janra aid musiqi nümunələrini tanıdan şəkillər və üzərində *mahnı, marş* və *rəqs* sözləri yazılmış üç kart paylanılır.

"Sadiq olaq Vətənə" mahnısından, Musa Mirzəyevin "Marş" pyesindən və "Cəngi" Azərbaycan xalq rəqsindən bir parça səsləndirilir. Musiqi səsləndikcə qruplar səslənən musiqi nümunəsinin adını və janrını müəyyən edib onlara müvafiq şəkli və kartı qaldırırlar.

***$T_1$*** (*kiçik qruplarla iş*): *Dinlədiyiniz musiqi nümunəsinin adını və janrını müəyyənləşdirin.*

Sonra qrupların cavabları müzakirə olunur.

2-ci tapşırığı yerinə yetirmək üçün "Sadiq olaq Vətənə" mahnısı, Musa Mirzəyevin "Marş" pyesi və "Cəngi" Azərbaycan xalq rəqsi əvvəldən axıradək ifa olunur.

***$T_2$*** (*kollektiv iş*): *Marş musiqisinin sədaları altında addımlayın. Mahnını və rəqsi xarakterinə uyğun ifa edin.*

Sonra musiqi nümunələrinin xarakterinə uyğun ifalar şagirdlərlə müzakirə olunur.

## III. Ümumiləşdirmə və refleksiya

Müəllim suallar verir və şagirdlər onları cavablandırırlar: *Bugünkü dərsimizin mövzusu nə idi? Hansı musiqi nümunələri ifa olundu? Dərsdə hansı işləri gördünüz? Dinlədiyiniz mahnı, marş və rəqsin daha hansı bayramlarda səslənməsini arzu edərdiniz?*

# 12-ci dərs

**Mövzu:** ***Melodiya və intonasiya***
**Standart:** 1.1.1., 2.1.3., 3.2.1.
**Məqsəd:** 1. Bəstəkar Qəmbər Hüseynli haqqında qısa məlumat verir.
2. "Cücələrim" mahnısını xarakterinə uyğun ifa edir.
3. Uşaq musiqi alətində not ardıcıllığını çalır.
**İnteqrasiya:** Azərb.d.: 2.2.5.
**İş forması:** kollektiv, kiçik qruplar, cütlər
**İş üsulu:** müzakirə, dinləmə, mahnıoxuma, musiqi alətlərində çalma, oyun, dərsliklə iş
**Resurs:** "Mahnının ifa qaydaları" (dərslik, səh. 5), "Cücələrim" mahnısının videoçarxı və ya səsyazması, metallofon, kartlar (*intonasiyaları bildirən sözlər: şıltaq, hirsli, şən, mehriban və qəmli; toyuq və cücə*), iş vərəqləri

**Dərsin gedişi:**

## I. Motivasiya

Müəllim musiqisi Qəmbər Hüseynliyə, sözləri Tofiq Mütəllibova məxsus olan "Cücələrim" mahnısından kiçik bir parçanı (mahnının birinci sətri) səsləndirir və şagirdlərə suallarla müraciət edir:

– Dinlədiyiniz musiqi parçasındakı cücələr haqqında nə deyə bilərsiniz? *(Şagirdlərin cavabları dinlənilir.)*

***Tədqiqat sualı:*** Musiqinin kiçik hissəsi nədən danışa bilər? *(Şagirdlərin fərziyyələri dinlənilir.)*

## II. Fəaliyyət

Müəllim sinfə *melodiya* və *intonasiya* haqqında qısa məlumat (dərslik, səh. 28) verir. Sonra "Mahnının ifa qaydaları" (dərslik, səh. 5) şagirdlərə xatırladılır, vokal məşqi keçirilir və "Cücələrim" mahnısı öyrədilir. Müəllim sinfi kiçik qruplara bölür və hər qrupa üzərində intonasiyaları bildirən sözlər yazılmış (*şıltaq, hirsli, şən, mehriban və qəmli*) bir kart paylayır.

***T₁** (kiçik qruplarla iş): Verilmiş intonasiyaya uyğun "Cücələrim" mahnısının nəqəratını ifa edin.*

Sonra fərqli intonasiyaların mahnının xarakterinə təsiri şagirdlərlə müzakirə olunur.

Müəllim şagirdlərə bəstəkar Qəmbər Hüseynli haqqında qısa məlumat verir. Sinif cütlərə bölünür və hər cütə iş vərəqi paylanılır. Müəllim lövhədə bəstəkarın yaradıcılığına aid bir neçə natamam cümlə yazır:

*1. Bəstəkar Qəmbər Hüseynli ..., ..., ... mahnılarının müəllifidir.*

*2. ... mahnısı ...-dən çox xalqın dilinə tərcümə olunub.*

*T2 (cütlərlə iş): Bəstəkar Qəmbər Hüseynliyə aid cümlələri tamamlayın.*

Sonra şagirdlərin bəstəkar haqqında yazdıqları cümlələr dinlənilir.

Müəllim notların adlarını şagirdlərin yadına salır. Sinfin diqqətini "Not evi" şəklinə (dərslik, səh. 29) yönəldir və not sətri haqqında qısa məlumat verir. 3-cü tapşırığı yerinə yetirmək üçün müəllim cütlərə "Toyuq və cücə" oyununun qaydalarını izah edir.

**"Toyuq və cücə" oyununun qaydaları:** Müəllim hər cütə metallofon uşaq musiqi aləti, iki çubuq, üzərində *toyuq* və *cücə* şəkli olan iki kart paylayır. Cütlərdəki şagirdlər öz aralarında metallofonda çalmaq üçün bir çubuq və bir kart seçirlər. Müəllim *toyuq* və *cücə* şəkilləri olan kartları növbə ilə yuxarı qaldırır. Bu zaman uyğun şəkilləri olan şagirdlər dərslikdə verilmiş sxemə görə aşağı ("*do, re, mi, fa*" – *toyuq*) və yuxarı ("*sol, lya, si, do*" – *cücə*) səs sırasını metallofonda çalırlar.

*T3 (cütlərlə iş): Verilmiş sxemə görə aşağı və yuxarı səs sırasını çalın.*

Sonra şagirdlərin metallofonda çaldığı səs sıralarının toyuq və cücənin intonasiyaları ilə oxşarlığı müzakirə olunur.

### III. Ümumiləşdirmə və refleksiya

Müəllim suallar verir və şagirdlər onları cavablandırırlar: *Bugünkü dərsimizin mövzusu nə idi? Hansı musiqi nümunələri ilə tanış oldunuz? Dərsdə hansı işləri gördünüz? Dərsdə ən çox xoşunuza gələn nə idi?*

## 13-cü dərs

| | |
|---|---|
| Mövzu: | **Musiqi ritmləri** |
| Standart: | 1.2.2., 2.1.3., 3.2.2. |
| Məqsəd: | 1. Musiqi əsərlərinin ritmini müəyyən edir.<br>2. "Qaliblər mahnısı"nı xarakterinə uyğun ifa edir.<br>3. Musiqi nümunələrini uşaq zərb alətləri ilə müşayiət edir. |
| İnteqrasiya: | Azərb.d.: 2.2.1. |
| İş forması: | kollektiv, fərdi |
| İş üsulu: | müzakirə, dinləmə, mahnıoxuma, musiqi alətlərində çalma, uyğunlaşdırma, dərsliklə iş |
| Resurs: | "Mahnının ifa qaydaları" və "Musiqi əsərinin dinləmə qaydaları" (dərslik, səh. 5), ürək döyüntüsünün səslənməsi, çərək və səkkizlik not və pauzalar cədvəli, "Qaliblər mahnısı" və "Cücələrim" mahnılarının videoçarxları və ya səsyazmaları, iş vərəqləri, zərb musiqi alətləri |

Dərsin gedişi:

## I. Motivasiya

Müəllim sinfə ürək döyüntüsü nümayiş edilən videoçarx göstərir. Sonra şagirdlərə suallarla müraciət edir:

– Ürək döyüntüsünü əl çalmaqla göstərə bilərsiniz? *(Şagirdlərin cavabları dinlənilir.)*

***Tədqiqat sualı:*** Musiqinin ritmini necə göstərmək olar? *(Şagirdlərin fərziyyələri dinlənilir.)*

## II. Fəaliyyət

Müəllim sinfə *ritm* və *ritmik şəkil* haqqında qısa məlumat verir, lövhədən çərək və səkkizlik not və pauzalara aid cədvəli asıb (dərslik, səh. 30) onu izah edir. "Cücələrim" mahnısından bir parça səsləndirilir. Müəllim mahnının ritmik şəklini əl çalmaqla nümayiş etdirir. Sonra şagirdlər müəllimlə birlikdə əl çalıb mahnının ritmik şəklinin nümayişini təkrar edirlər.

"Musiqi əsərinin dinləmə qaydaları" (dərslik, səh. 5) şagirdlərə xatırladılır. Musiqisi Qəmbər Hüseynliyə, sözləri Ələkbər Ziyataya məxsus olan "Qaliblər mahnısı" səsləndirilir. Müəllim şagirdlərin diqqətini "Qaliblər mahnısı"nın ritmik şəklinə (dərslik, səh. 31) yönəldir və zərb musiqi alətlərini paylayır.

***T1*** *(fərdi və kollektiv iş): "Qaliblər mahnısı"nı ritmik şəklinə görə zərb musiqi alətlərində müşayiət edin.*

"Qaliblər mahnısı"nın birinci bəndi səsləndirilir. Sonra mahnının ritmik şəklinin zərb musiqi alətlərində çalmaqla göstərilməsi şagirdlərlə müzakirə olunur.

"Mahnının ifa qaydaları" (dərslik, səh. 5) şagirdlərin yadına salınır və vokal məşqi keçirilir. "Qaliblər mahnısı"nın birinci bəndi öyrədilir. Mahnının xarakteri haqqında şagirdlərin təəssüratları dinlənilir.

***T2*** *(fərdi və kollektiv iş): "Qaliblər mahnısı"nın birinci bəndini xarakterinə uyğun oxuyun.*

Sonra mahnının ritminin xarakteri ilə əlaqəsi şagirdlərlə müzakirə olunur.

## III. Ümumiləşdirmə və refleksiya

Müəllim suallar verir və şagirdlər onları cavablandırırlar: *Bugünkü dərsimizin mövzusu nə idi? Hansı musiqi nümunələri ilə tanış oldunuz? Dərsdə hansı işləri gördünüz? Dərsdə ritm haqqında yeni nə öyrəndiniz?*

# 14-cü dərs

| | |
|---|---|
| Mövzu: | **Asta, orta və tez templər** |
| Standart: | 1.2.2., 3.3.2. |
| Məqsəd: | 1. Musiqi əsərinin tempini müəyyən edir. |
| | 2. "Qaliblər mahnısı"nı tempinə uyğun oxuyur. |
| İnteqrasiya: | Azərb.d.: 2.2.1. |

**İş forması:** kollektiv, kiçik qruplar
**İş üsulu:** müzakirə, dinləmə, mahnıoxuma, uyğunlaşdırma, dərsliklə iş
**Resurs:** "Mahnının ifa qaydaları" və "Musiqi əsərinin dinləmə qaydaları" (dərslik, səh. 5), "Qaliblər mahnısı"nın və "Məktəbə gedərkən" pyesinin videoçarxları və ya səsyazmaları, iş vərəqləri, yapışqan, şəkillər (müxtəlif xarakterləri bildirən simalar)

**Dərsin gedişi:**

## I. Motivasiya

Lövhədə "Tempin növləri: asta, orta (mülayim), tez" sözləri yazılır. Musiqisi Qəmbər Hüseynliyə, sözləri Ələkbər Ziyataya məxsus olan "Qaliblər mahnısı"nın I bəndi səsləndirilir. Sonra müəllim sinfə suallarla müraciət edir:

– Dinlədiyiniz mahnı hansı tempdə ifa olundu? *(Şagirdlərin cavabları dinlənilir.)*

–***Tədqiqat sualı:*** Temp musiqinin xarakterinə necə təsir edir? *(Şagirdlərin fərziyyələri dinlənilir.)*

## II. Fəaliyyət

Müəllim sinfə temp haqqında qısa məlumat verir (dərslik, səh. 32). "Mahnının ifa qaydaları" (dərslik, səh. 5) şagirdlərin yadına salınır və vokal məşqi keçirilir. Müəllim "Qaliblər mahnısı"nın orta tempdə olmasını bildirir.

***T*1** *(kollektiv iş): "Qaliblər mahnısı"nı orta tempdə oxuyun.*

Sonra tempin mahnının xarakterinə təsiri şagirdlərlə müzakirə olunur.

Sinif kiçik qruplara bölünür. Hər qrupa üzərində 3 sütunlu cədvəldə *asta*, *orta (mülayim)*, *tez* sözləri yazılmış iş vərəqləri və *şən*, *qəmli*, *hirsli*, *təəccüb*, *ciddi* xarakterləri bildirən simaların şəkilləri və yapışqan paylanılır.

| Temp | Asta | Orta | Tez |
|---|---|---|---|
| Xarakter | ? | ? | ? |

"Musiqi əsərinin dinləmə qaydaları" (dərslik, səh. 5) şagirdlərə xatırladılır. Qəmbər Hüseynlinin "Uşaq albomu"nda olan "Məktəbə gedərkən" pyesindən bir parça əvvəl orta (öz tempində), sonra isə asta və lap sonda isə tez tempdə səsləndirilir.

***T*2** *(kiçik qruplarla iş): "Məktəbə gedərkən" pyesinin müxtəlif templərdə ifasına uyğun simanı seçib müvafiq sütunda yerləşdirin.*

Sonra tempin musiqinin xarakterinə təsiri müzakirə olunur.

## III. Ümumiləşdirmə və refleksiya

Müəllim suallar verir və şagirdlər onları cavablandırırlar: *Bugünkü dərsimizin mövzusu nə idi? Hansı musiqi nümunələri ilə tanış oldunuz? Dərsdə hansı işləri gördünüz? Hansı tempdə musiqi əsərləri daha çox xoşunuza gəlir?*

# 15-ci dərs

| | |
|---|---|
| **Mövzu:** | **Major ladı** |
| **Standart:** | 1.1.1., 2.1.1., 3.3.1. |
| **Məqsəd:** | 1. Fikrət Əmirov haqqında qısa məlumat verir.<br>2. Musiqi əsərinin emosional xarakterini müəyyən edir.<br>3. “Qatar” mahnısını major ladının əhvali-ruhiyyəsinə uyğun ifa edir. |
| **İnteqrasiya:** | Azərb.d.: 1.2.1. |
| **İş forması:** | kollektiv, kiçik qruplar, fərdi |
| **İş üsulu:** | müzakirə, dinləmə, mahnıoxuma, şaxələndirmə, dərsliklə iş |
| **Resurs:** | “Mahnının ifa qaydaları” (dərslik, səh. 5), “Qatar” mahnısının video-çarxı və ya səsyazması, “Cırtdan” Azərbaycan cizgi filmindən bir parça, iş vərəqləri, kartlar (*şən* və *qəmli* simaların təsviri; *gümrah, təntənəli* və *oynaq* sözləri) |

**Dərsin gedişi:**

## I. Motivasiya

“Cırtdan” Azərbaycan cizgi filmindən bir parça nümayiş olunur.

Sonra müəllim şagirdlərə suallarla müraciət edir:

– Dinlədiyiniz musiqinin əhvali-ruhiyyəsi necə idi? *(Şagirdlərin cavabları dinlənilir.)*

***Tədqiqat sualı:*** Musiqinin əhvali-ruhiyyəsi nədən asılı ola bilər? *(Şagirdlərin fərziyyələri dinlənilir.)*

## II. Fəaliyyət

Sinfə *lad* və *major ladı* haqqında qısa məlumat (dərslik, səh. 34) verilir. Müəllim major ladını “la” hecası ilə oxuyur və ya səsləndirir. Sonra “Musiqi əsərlərinin dinləmə qaydaları” (dərslik, səh. 5) şagirdlərə xatırladılır, musiqisi Fikrət Əmirova, sözləri Zeynal Cabbarzadəyə məxsus olan “Qatar” mahnısı səsləndirilir. Şagirdlərə *şən* və *qəmli* simaların təsviri olan kartlar paylanılır (dərslik, səh. 35).

*T1 (fərdi iş): "Qatar" mahnısının əhvali-ruhiyyəsinə görə kartdakı simanı seçin.*

Sonra şagirdlərin seçimi və musiqinin dinləyicinin hisslərinə təsiri müzakirə olunur. Müəllim müzakirə zamanı "Qatar" mahnısının major ladında yazılmasını bildirir.

"Mahnının ifa qaydaları" (dərslik, səh. 5) şagirdlərə xatırladılır və vokal məşqi (major ladını "la" hecası ilə) keçirilir, "Qatar" mahnısı öyrədilir.

*T2 (kiçik qruplarla iş): "Qatar" mahnısını xarakterinə uyğun oxuyun.*

Sonra major ladında yazılmış musiqinin şən əhvali-ruhiyyədə ifası müzakirə olunur.

Müəllim şagirdlərə bəstəkar Fikrət Əmirov haqqında qısa məlumat (dərslik, səh. 35) verir. Hər qrupa mərkəzində *Fikrət Əmirov* sözləri yazılmış iş vərəqi paylanılır və *şaxələndirmə* üsulunun qaydaları şagirdlərə xatırladılır.

*T3 (kiçik qruplarla iş): Fikrət Əmirov haqqında bildiklərinizi çərçivələrdə qeyd edin.*

Sonra qrupların iş vərəqləri müzakirə olunur.

### III. Ümumiləşdirmə və refleksiya

Müəllim suallar verir və şagirdlər onları cavablandırırlar: *Bugünkü dərsimizin mövzusu nə idi? Hansı musiqi nümunələri ilə tanış oldunuz? Dərsdə hansı işləri gördünüz? Təbiətin hansı hadisəsini major ladında ifadə edərdiniz?*

## 16-cı dərs

| | |
|---|---|
| **Mövzu:** | **Minor ladı** |
| **Standart:** | 1.1.3., 2.1.1., 3.3.1. |
| **Məqsəd:** | 1. "Qatar" və "Quşlar" mahnıları haqqında qısa məlumat verir.<br>2. Musiqi nümunələrini emosional xarakterinə uyğun ifa edir.<br>3. "Quşlar" mahnısını minor ladının əhvali-ruhiyyəsinə uyğun oxuyur. |
| **İnteqrasiya:** | Azərb.d.: 1.2.1. |
| **İş forması:** | kollektiv, kiçik qruplar, fərdi |
| **İş üsulu:** | müzakirə, dinləmə, mahnıoxuma, Venn diaqramı, dərsliklə iş |
| **Resurs:** | "Mahnının ifa qaydaları" və "Musiqi əsərinin dinləmə qaydaları" (dərslik, səh. 5), "Laylay", "Qatar" və "Quşlar" mahnılarının video-çarxları və ya səsyazmaları, iş vərəqləri, kartlar (*şən* və *qəmli* simaların təsviri, *sakit, fikirli* və *küskün* sözləri) |

## Dərsin gedişi:

### I. Motivasiya

"Musiqi əsərinin dinləmə qaydaları" şagirdlərə xatırladılır. Musiqisi Oqtay Zülfüqarova, sözləri Teymur Elçinə məxsus olan "Laylay" mahnısı səsləndirilir. Sonra müəllim şagirdlərə suallarla müraciət edir:

– Dinlədiyiniz musiqi major ladında yazılıb? *(Şagirdlərin cavabları dinlənilir.)*

***Tədqiqat sualı:*** Musiqi əsərinin ladını necə müəyyən etmək olar? *(Şagirdlərin fərziyyələri dinlənilir.)*

### II. Fəaliyyət

Sinfə minor ladı haqqında qısa məlumat (dərslik, səh. 36) verilir. Müəllim minor ladını "la" hecası ilə oxuyur və ya səsləndirir. Sonra "Mahnının ifa qaydaları" (dərslik, səh. 5) şagirdlərə xatırladılır və vokal məşqi (minor ladını "la" hecası ilə) keçirilir. Musiqisi Fikrət Əmirova, sözləri Zeynal Cabbarzadəyə məxsus olan "Quşlar" mahnısı öyrədilir. Şagirdlərə *şən* və *qəmli* simaların təsviri olan kartlar paylanılır (dərslik, səh. 37).

*T1 (fərdi iş): "Quşlar" mahnısının əhvali-ruhiyyəsinə görə kartdakı simanı seçin.*

Sonra şagirdlərin seçimi müzakirə olunur və əhvali-ruhiyyəsinə uyğun "Quşlar" mahnısının minor ladında yazılması söylənilir.

Müəllim sinfi 3 qrupa bölür. Hər qrupa üzərində əhvali-ruhiyyəni bildirən söz, ifa edəcəyi bənd və nəqəratın mətni yazılmış kart paylanılır: *sakit,* I bənd və nəqərat; *küskün,* II bənd və nəqərat; *fikirli,* III bənd və nəqərat.

*T2 (kiçik qruplarla iş): Kartda verilmiş əhvali-ruhiyyə ilə "Quşlar" mahnısını oxuyun.*

Sonra musiqinin əhvali-ruhiyyəsinə görə mahnının minor ladının müəyyən edilməsi şagirdlərlə müzakirə olunur.

Müəllim şagirdlərin diqqətini "Ladın növləri" sxeminə (dərslik, səh. 36) yönəldir. Hər qrupa üzərində *Venn diaqramı* çəkilmiş iş vərəqi paylanılır və həmin üsulun qaydaları şagirdlərə izah edilir.

*T3 (kiçik qruplarla iş): "Quşlar" və "Qatar" mahnılarını müqayisə edin.*

Sonra qrupların iş vərəqləri müzakirə olunur.

### III. Ümumiləşdirmə və refleksiya

Müəllim suallar verir və şagirdlər onları cavablandırırlar: *Bugünkü dərsimizin mövzusu nə idi? Hansı musiqi nümunələri ilə tanış oldunuz? Dərsdə hansı işləri gördünüz? Dərsdə səslənən mahnı sizdə hansı hisslər yaratdı?*

# 17-ci dərs

| | |
|---|---|
| **Mövzu:** | **Musiqi ölçüsü: “Bir və, iki və”** |
| **Standart:** | 1.2.2., 2.1.3., 3.3.3. |
| **Məqsəd:** | 1. Musiqi nümunəsinin ölçüsünü müəyyən edir.<br>2. “Yallı” Azərbaycan xalq rəqsini xarakterinə uyğun ifa edir.<br>3. Öz ifasına 2/4 ölçüsündə dirijorluq edir. |
| **İnteqrasiya:** | F.t.: 4.1.1. |
| **İş forması:** | kollektiv, fərdi |
| **İş üsulu:** | müzakirə, dinləmə, mahnıoxuma, rəqsetmə, dərsliklə iş |
| **Resurs:** | “Mahnının ifa qaydaları” (dərslik, səh. 5), “Quşlar” mahnısının və “Yallı” Azərbaycan xalq rəqsinin videoçarxları və ya səsyazmaları, ölçmə vasitələri (*tərəzi, metrə, xətkeş, menzurka*), kartlar (*vurğulu səsə əl çalmaq, vurğusuz səsə yumruqları bir-birinə vurmaq*), “Rəqs elementləri” sxemi (dərslik, səh. 39) |

**Dərsin gedişi:**

## I. Motivasiya

Sinfə müxtəlif ölçmə vasitələri (*tərəzi, metrə, xətkeş, menzurka*) nümayiş olunur. Sonra müəllim şagirdlərə suallarla müraciət edir:

– Gördüyünüz vasitələrlə nəyi ölçmək olar? *(Şagirdlərin cavabları dinlənilir.)*

***Tədqiqat sualı:*** Musiqidə ölçünü necə göstərmək olar? *(Şagirdlərin fərziyyələri dinlənilir.)*

## II. Fəaliyyət

Sinfə musiqidə ölçü haqqında qısa məlumat (dərslik, səh. 38) verilir. Müəllim şagirdlərin diqqətini “Bir və, iki və” dirijorluq sxeminə (dərslik, səh. 38) yönəldir və ölçüyə uyğun dirijorluq hərəkətlərini nümayiş etdirir. Musiqisi Fikrət Əmirova, sözləri Zeynal Cabbarzadəyə məxsus olan “Quşlar” mahnısının həmin ölçüdə yazılması qeyd edilir. Sonra “Mahnının ifa qaydaları” (dərslik, səh. 5) şagirdlərə xatırladılır və vokal məşqi keçirilir.

***T1*** *(kollektiv və fərdi iş): “Quşlar” mahnısını dirijorluq edərək oxuyun.*

“Quşlar” mahnısı ifa olunur. Sonra mahnının ölçüsünün şagirdlərin dirijorluq hərəkətləri ilə göstərilməsi müzakirə olunur.

Müəllim 2-ci tapşırığı yerinə yetirmək üçün şagirdlərin diqqətini kartlara yönəldir (dərslik, səh. 39) və izah edir: musiqi səslənəndə onun vurğulu səslərində əl çalmalı, vurğusuz səslərində isə yumruqlar bir-birinə vurulmalıdır.

***T*2** *(fərdi iş): "Quşlar" mahnısında vurğulu və vurğusuz səsləri kartlarda verilmiş hərəkətlərlə göstərin.*

Sonra mahnının ölçüsünü müəyyən edən vurğulu və vurğusuz səslər şagirdlərlə müzakirə olunur.

"Musiqi əsərinin dinləmə qaydaları" (dərslik, səh. 5) şagirdlərə xatırladılır. "Yallı" Azərbaycan xalq rəqsindən bir parça səsləndirilir və rəqsin ölçüsü ("bir və, iki və") bildirilir. Müəllim şagirdlərin diqqətini "Yallı" rəqsinin "Rəqs elementləri" sxeminə yönəldir.

***T*3** *(kollektiv iş): "Yallı" rəqsini xarakterinə uyğun ifa edin.*

Sonra şagirdlərin icra etdikləri hərəkətlərin rəqsin ölçüsünə uyğunluğu müzakirə olunur.

### III. Ümumiləşdirmə və refleksiya

Müəllim suallar verir və şagirdlər onları cavablandırırlar: *Bugünkü dərsimizin mövzusu nə idi? Hansı musiqi nümunələri səsləndirildi? Dərsdə hansı işləri gördünüz? Dərsdə sizin üçün maraqlı olan nə idi?*

## 18-ci dərs

| | |
|---|---|
| **Mövzu:** | **Musiqi ölçüsü: "Bir və, iki və, üç və"** |
| **Standart:** | 1.2.2., 2.1.2., 3.3.3. |
| **Məqsəd:** | 1. Musiqi nümunəsinin ölçüsünü müəyyən edir.<br>2. Pyesin melodiyasına əl çalmaqla ritm tutur.<br>3. Öz ifasına 3/4 ölçüsündə dirijorluq edir. |
| **İnteqrasiya:** | F.t.: 4.1.1. |
| **İş forması:** | kollektiv, kiçik qruplar, fərdi |
| **İş üsulu:** | müzakirə, dinləmə, mahnıoxuma, dirijorluq, uyğunlaşdırma, ritmika, dərsliklə iş |
| **Resurs:** | "Mahnının ifa qaydaları" və "Musiqi əsərinin dinləmə qaydaları" (dərslik, səh. 5), "Quzum" Azərbaycan xalq mahnısının və "Qərənfil" mahnısının videoçarxları və ya səsyazmaları, "Quzum" Azərbaycan xalq mahnısının ritmik şəkli, iş vərəqləri |

Dərsin gedişi:

## I. Motivasiya

Lövhədə "İdman" mahnısının I bəndi doğru (*Kim sevirsə idmanı, bir, iki, üç, dörd, Poladdan olar canı, bir, iki, üç, dörd*) və səhv (*Kim sevirsə idmanın növlərini, bir, iki, üç, dörd, Poladdan bərk olar canı, bir, iki, üç, dörd, beş*) variantlarda yazılır. Mahnının melodiyası səsləndirilir və musiqi sədaları altında müəllim şagirdlərlə birgə lövhədə yazılmış hər iki variantı oxuyur. Sonra müəllim şagirdlərə suallarla müraciət edir:

– Hansı variant ölçüsünə görə musiqiyə uyğun gəlir? *(Şagirdlərin cavabları dinlənilir.)*

***Tədqiqat sualı:*** Musiqidə ölçü niyə lazımdır? *(Şagirdlərin fərziyyələri dinlənilir.)*

## II. Fəaliyyət

Sinfə daha bir musiqi ölçüsü ("Bir və, iki və, üç və") haqqında qısa məlumat (dərslik, səh. 40) verilir. Müəllim şagirdlərin diqqətini dirijorluq sxeminə (dərslik, səh. 40) yönəldir və ölçüyə uyğun dirijorluq hərəkətlərini nümayiş etdirir. Sonra "Mahnının ifa qaydaları" (dərslik, səh. 5) şagirdlərə xatırladılır və vokal məşqi keçirilir. Musiqisi Səid Rüstəmova, sözləri Mirmehdi Seyidzadəyə məxsus olan "Qərənfil" mahnısı öyrədilir. Sonra mahnının həmin ölçüdə yazılması qeyd edilir.

***$T_1$*** *(kollektiv və fərdi iş): "Qərənfil" mahnısını dirijorluq edərək oxuyun.*

Sonra müəyyən musiqi ölçüsündə dirijorluq ilə mahnının dəqiq ifası arasında əlaqə şagirdlərlə müzakirə olunur.

2-ci tapşırığı yerinə yetirmək üçün müəllim sinfi kiçik qruplara bölür və şagirdlərin diqqətini kartlara yönəldir (dərslik, səh. 41). "Musiqi əsərinin dinləmə qaydaları" (dərslik, səh. 5) şagirdlərə xatırladılır və "Quzum" Azərbaycan xalq mahnısının melodiyasından bir parça səsləndirilir.

Müəllim ritm anlayışını və not uzunluqlarını (dərslik, səh. 30) şagirdlərə xatırladır və onların diqqətini "Quzum" Azərbaycan xalq mahnısının ritmik şəklinə yönəldir (dərslik, səh. 41).

***$T_2$*** *(kollektiv iş): "Quzum" mahnısını kartlarda verilmiş hərəkətlərlə müşayiət edin.*

"Quzum" Azərbaycan xalq mahnısı təkrar səsləndirilir. Sonra vurğulu səslərə görə mahnının ölçüsünün müəyyənləşdirilməsi imkanı şagirdlərlə müzakirə olunur.

## III. Ümumiləşdirmə və refleksiya

Müəllim suallar verir və şagirdlər onları cavablandırırlar: *Bugünkü dərsimizin mövzusu nə idi? Hansı musiqi nümunələri ilə tanış oldunuz? Dərsdə hansı işləri gördünüz? Dərsdə ölçü haqqında yeni nə öyrəndiniz?*

# 19-cu dərs

| | |
|---|---|
| Mövzu: | **Səsin gücü – dinamika** |
| Standart: | 2.1.3., 3.3.1. |
| Məqsəd: | 1. “Novruzu” rəqsini xarakterinə uyğun ifa edir.<br>2. “Qırmızı şar” mahnısını dinamik çalarlara riayət etməklə oxuyur. |
| İnteqrasiya: | Azərb.d.: 2.2.1. |
| İş forması: | kollektiv |
| İş üsulu: | müzakirə, dinləmə, mahnıoxuma, uyğunlaşdırma, rəqsetmə, dərsliklə iş |
| Resurs: | “Mahnının ifa qaydaları” və “Musiqi əsərinin dinləmə qaydaları” (dərslik, səh. 5), “Novruzu” Azərbaycan xalq rəqsinin və “Qırmızı şar” mahnısının videoçarxları və ya səsyazmaları, dinamik çalarlar (*f*, *p*) yazılmış kartlar, şəkillər (1 – dağın başında dayanan oğlan və dağın ətəyində dayanan qız söhbət edir; 2 – həyətdə iki oğlan söhbət edir; 3 – masa arxasında iki qız pıçıldaşır), “Rəqs elementləri” sxemi (dərslik, səh. 43) |

## Dərsin gedişi:

### I. Motivasiya

Lövhədə üç şəkil asılır: 1) dağın başında dayanan oğlan və dağın ətəyində dayanan qız söhbət edir; 2) həyətdə iki oğlan söhbət edir; 3) masa arxasında iki qız pıçıldaşır. Sonra müəllim şagirdlərə suallarla müraciət edir:

– Şəkillərdəki uşaqlar bir-birini eşitmək üçün hansı səs gücü ilə danışmalıdırlar? *(Şagirdlərin cavabları dinlənilir.)*

***Tədqiqat sualı:*** Səsin gücü ilə musiqidə nəyi göstərmək olar? *(Şagirdlərin fərziyyələri dinlənilir.)*

### II. Fəaliyyət

Müəllim şagirdlərə səsin gücü – dinamika və dinamik çalarlar haqqında qısa məlumat verir (dərslik, səh. 42). “Mahnının ifa qaydaları” (dərslik, səh. 5) şagirdlərə xatırladılır və vokal məşqi keçirilir. Sonra musiqisi Ağabacı Rzayevaya, sözləri Cahangir Məmmədova məxsus olan “Qırmızı şar” mahnısı öyrədilir.

*T1 (kollektiv iş): “Qırmızı şar” mahnısını oxuyarkən nəqəratı kartda göstərilən dinamik çalarlarla ifa edin.*

**Nəqarat**

Şarım qalxdı havaya,
Salam apardı Aya. — ***f*** – forte
Şarım qalxdı havaya,
Salam apardı Aya. — ***p*** – piano

Sonra mahnıda əks olunan hadisənin dinamik çalarlarla göstərilməsi şagirdlərlə müzakirə olunur.

"Musiqi əsərlərinin dinləmə qaydaları" (dərslik, səh. 5) şagirdlərə xatırladılır. "Novruzu" Azərbaycan xalq rəqsi səsləndirilir və onun dinamik çalarları haqqında şagirdlərin fikirləri dinlənilir. Müəllim şagirdlərin diqqətini "Rəqs elementləri" sxeminə yönəldir (dərslik, səh. 43) və həmin elementləri öyrədir.

***T*2** *(kollektiv iş): "Novruzu" rəqsini xarakterinə uyğun ifa edin.*

"Novruzu" Azərbaycan xalq rəqsi təkrar səsləndirilir. Sonra rəqsin xarakterinin dinamik çalarlarla göstərilməsi şagirdlərlə müzakirə olunur.

### III. Ümumiləşdirmə və refleksiya

Müəllim suallar verir və şagirdlər onları cavablandırırlar: *Bugünkü dərsimizin mövzusu nə idi? Hansı musiqi nümunələri ilə tanış oldunuz? Dərsdə hansı işləri gördünüz? Dərsdəki əhvali-ruhiyyənizi hansı dinamik çalara bənzədərdiniz?*

## 20-ci dərs

| | |
|---|---|
| **Mövzu:** | **Musiqi dili** |
| **Standart:** | 1.1.3., 2.1.3., 3.2.1. |
| **Məqsəd:** | 1. Mahnıların musiqi ifadə vasitələri haqqında məlumat verir.<br>2. Musiqi nümunələrini xarakterinə uyğun ifa edir.<br>3. Uşaq musiqi alətində not ardıcıllığını çalır. |
| **İnteqrasiya:** | Azərb.d.: 1.2.1. |
| **İş forması:** | kollektiv, kiçik qruplar, cütlər |
| **İş üsulu:** | müzakirə, dinləmə, mahnıoxuma, musiqi alətlərində çalma, rəqsetmə, konseptual cədvəl, dərsliklə iş |
| **Resurs:** | "Mahnının ifa qaydaları" (dərslik, səh. 5), "Qırmızı şar" mahnısının və "Novruzu" Azərbaycan xalq rəqsinin videoçarxları və ya səsyazmaları, metallofonlar, iş vərəqi, Novruz çərşənbələrinin təsviri olan kartlar |

**Dərsin gedişi:**

### I. Motivasiya

Müəllim lövhədə *Söz qurtaran yerdə musiqi danışır* ifadəsini yazır. Sonra şagirdlərə suallarla müraciət edir:

– Lövhədəki ifadəni necə izah edərdiniz? *(Şagirdlərin cavabları dinlənilir.)*

***Tədqiqat sualı:*** Musiqi necə "danışa" bilər? *(Şagirdlərin fərziyyələri dinlənilir.)*

## II. Fəaliyyət

Müəllim şagirdlərə musiqi dili haqqında qısa məlumat verir (dərslik, səh. 44). Şagirdlərin diqqəti musiqisi Ağabacı Rzayevaya, sözləri Cahangir Məmmədova məxsus olan "Qırmızı şar" mahnısının melodik xəttinə yönəldilir (dərslik, səh. 44). Sonra müəllim bir masa arxasında oturan hər cütlüyə metallofon və iki çubuq paylayır (hər şagirdə bir çubuq). Cütlüyün bir üzvü aşağı səs sırasının notlarını (*fa, mi, re, re)* 2 dəfə, cütün digər üzvü isə aşağı və yuxarı səs sırasının notlarını (*fa, mi, re, re* və *fa, sol, lya, lya)* metallofonda sxemə uyğun çalır (dərslik, səh. 44).

***T*₁ *(cütlərlə iş): Sxemə görə "Qırmızı şar" mahnısının melodiyasını metallofonda çalın.***

"Qırmızı şar" mahnısının I bəndi səsləndirilir. Sonra mahnının sözləri ilə melodiyanın istiqaməti arasında əlaqə şagirdlərlə müzakirə olunur.

"Mahnının ifa qaydaları" (dərslik, səh. 5) şagirdlərə xatırladılır və vokal məşqi keçirilir. "Qırmızı şar" mahnısı ifa olunur. Sinif kiçik qruplara bölünür və hər qrupa üzərində konseptual cədvəl olan iş vərəqi paylanılır. Müəllim konseptual cədvəllə işləmə qaydasını şagirdlərə izah edir (dərslik, səh. 45).

| Musiqi əsərinin adı | Melodiya | Ritm | Temp | Lad | Ölçü *(dirijorluq sxeminə əsasən)* | Dinamik çalarlar |
|---|---|---|---|---|---|---|
| "Qırmızı şar" | enən | oynaq | orta | **minor** | **"bir və, iki və"** | ***f (forte)*** |

*$T_2$ (kiçik qruplarla iş): Cədvəli tamamlayın.*

Müəllim hər qrupa üzərində bir *çərşənbə* gününün (*Su çərşənbəsi, Od çərşənbəsi, Yel çərşənbəsi, Torpaq çərşənbəsi*) adı yazılmış kartlar paylayır.

*$T_3$ (kiçik qruplarla iş): "Novruzu" rəqsini ifa edərək kartlarda verilmiş Novruz çərşənbələrinin təsvirini hərəkətlərlə göstərin.*

"Novruzu" Azərbaycan xalq rəqsi səsləndirilir. Sonra hərəkətlərlə rəqsin xarakterinin ifadəsi şagirdlərlə müzakirə olunur.

## III. Ümumiləşdirmə və refleksiya

Müəllim suallar verir və şagirdlər onları cavablandırırlar: *Bugünkü dərsimizin mövzusu nə idi? Hansı musiqi nümunələri ilə tanış oldunuz? Dərsdə hansı işləri gördünüz? Dərsdə sizə maraqlı olan nə idi?*

# 21-ci dərs

| | |
|---|---|
| Mövzu: | **Musiqidə məzmun** |
| Standart: | 1.1.2., 2.1.1., 3.3.2. |
| Məqsəd: | 1. Dinlədiyi musiqi nümunələrinin müəllifini müəyyən edir.<br>2. Musiqi əsərinin məzmunu haqqında danışır.<br>3. "Zəfər bizimdir" mahnısını ritm və tempinə uyğun oxuyur. |
| İnteqrasiya: | Azərb.d.: 1.2.1., T.i.: 3.1.1. |
| İş forması: | kollektiv, kiçik qruplar |
| İş üsulu: | müzakirə, dinləmə, mahnıoxuma, konseptual cədvəl, ritmika, dərsliklə iş |
| Resurs: | "Mahnının ifa qaydaları" və "Musiqi əsərinin dinləmə qaydaları" (dərslik, səh. 5), "Zəfər bizimdir" mahnısının və Azərbaycan Respublikasının Dövlət Himninin videoçarxları və ya səsyazmaları, iş vərəqləri, musiqi ifadə vasitələrinin (*Melodiya, Ritm, Temp, Ölçü, Lad və Dinamika)* şərti şəkilləri |

Dərsin gedişi:

### I. Motivasiya

Müəllim lövhədə musiqi ifadə vasitələrinin *(Melodiya, Ritm, Temp, Ölçü, Lad və Dinamika)* şərti şəkillərini asır və hər şəklin altında onun adını yazır. Sonra şagirdlərə suallarla müraciət edir:

– Musiqi ifadə vasitələri haqqında nə bilirsiniz? *(Şagirdlərin cavabları dinlənilir.)*

***Tədqiqat sualı:*** Musiqi əsəri nədən danışa bilər? *(Şagirdlərin fərziyyələri dinlənilir.)*

### II. Fəaliyyət

Sinfə musiqinin məzmunu haqqında qısa məlumat (dərslik, səh. 46) verilir və şagirdlərin diqqəti musiqi ifadə vasitələrinə aid cədvələ (dərslik, səh. 46) yönəldilir.

Müəllim lövhədə konseptual cədvəl çəkir: 8 sütun (müəlliflərin adları, melodiya, ritm, temp, lad, ölçü, dinamik çalarlar, məzmun) və 3 sətir. "Musiqi əsərinin dinləmə qaydaları" (dərslik, səh. 5) şagirdlərə xatırladılır. Musiqisi Şəfiqə Axundovaya, sözləri Abdulla Şaiqə məxsus olan "Zəfər bizimdir" mahnısının I bənd və nəqəratı səsləndirilir, lövhədəki cədvələ mahnının musiqi ifadə vasitələrinə aid məlumatlar qeyd edilir (dərslik, səh. 47).

| Müəlliflərin adları | Melodiya | Ritm | Temp | Lad | Ölçü *(dirijorluq sxeminə əsasən)* | Dinamik çalarlar | Məzmun |
|---|---|---|---|---|---|---|---|
| Şəfiqə Axundova, Abdulla Şaiq | qalxan | marş | orta | minor | "bir və, iki və" | *f* (forte) | *(sərbəst fikirlər)* |

Sonra sinif kiçik qruplara bölünür. Qruplara üzərində "Zəfər bizimdir" mahnısına aid cədvəl olan (dərslik, səh. 47) iş vərəqi paylanılır.

*T1 (kiçik qruplarla iş): "Zəfər bizimdir" mahnısının məzmunu haqqında fikirlərinizi cədvələ yazın.*

"Zəfər bizimdir" mahnısı təkrar səsləndirilir. Sonra qrupların mahnının məzmunu haqqında yazdıqları dinlənilir, sinfin ümumi fikri lövhədəki cədvəlin *Məzmun* sütununda qeyd edilir və musiqi ifadə vasitələri ilə uyğunluğu şagirdlərlə müzakirə olunur.

"Mahnının ifa qaydaları" (dərslik, səh. 5) şagirdlərə xatırladılır, vokal məşqi keçirilir və "Zəfər bizimdir" mahnısı öyrədilir.

*T2 (kollektiv iş): Ritminə uyğun addımlamaqla "Zəfər bizimdir" mahnısını ifadəli oxuyun.*

Sonra *"Zəfər bizimdir"* mahnısının ifası şagirdlərlə müzakirə olunur.

Müəllim hər qrupa üzərində konseptual cədvəl olan iş vərəqi paylayır.

| Musiqi əsərinin adı | Müəlliflərin adları | Melodiya | Ritm | Temp | Lad | Ölçü | Dinamik çalarlar | Məzmun |
|---|---|---|---|---|---|---|---|---|
| Azərbaycan Respublikasının Dövlət Himni | Üzeyir Hacıbəyli, Əhməd Cavad | qalxan | marş | orta | minor | "bir və, iki və" | *f* (forte) | *(sərbəst fikirlər)* |

Azərbaycan Respublikasının Dövlət Himni (musiqisi Üzeyir Hacıbəylinin, sözləri Əhməd Cavadın) ifa olunur.

*T3 (kiçik qruplarla iş): Azərbaycan Respublikasının Dövlət Himninə aid məlumatları cədvəldə qeyd edin.*

Sonra qrupların qeydləri dinlənilir, sinfin ümumi fikri lövhədəki cədvəlin 3-cü sətrinə əlavə edilir və müzakirə olunur.

## III. Ümumiləşdirmə və refleksiya

Müəllim suallar verir və şagirdlər onları cavablandırırlar: *Bugünkü dərsimizin mövzusu nə idi? Hansı musiqi nümunələri ilə tanış oldunuz? Dərsdə hansı işləri gördünüz? "Qarabağ Azərbaycandır!" adlı musiqi əsəri yazsaydınız, hansı musiqi ifadə vasitələrini seçərdiniz?*

# 22-ci dərs

| | |
|---|---|
| Mövzu: | **Musiqi obrazları** |
| Standart: | 2.1.3., 3.1.2. |
| Məqsəd: | 1. Musiqi əsərində olan obrazları xarakterlərinə uyğun ifa edir.<br>2. "Nənəm evdə qalıb tək" mahnısını kanon şəklində oxuyur. |
| İnteqrasiya: | Azərb.d.: 1.2.3. |
| İş forması: | kollektiv, böyük qruplar, fərdi |
| İş üsulu: | müzakirə, dinləmə, mahnıoxuma, rəqsetmə, oyun, dərsliklə iş |
| Resurs: | "Mahnının ifa qaydaları" və "Musiqi əsərinin dinləmə qaydaları" (dərslik, səh. 5), "Nənəm evdə qalıb tək" mahnısının və "Şəlalə" Azərbaycan xalq rəqsinin videoçarxları və ya səsyazmaları, *marş ritminin, uşaq qığıltısının, quşların civiltisinin, küləyin vıyıltısının* səsyazmaları |

Dərsin gedişi:

## I. Motivasiya

Müəllim müxtəlif səsləri (*marş ritmini, uşaq qığıltısını, quşların civiltisini, küləyin vıyıltısını*) səsləndirir. Sonra şagirdlərə suallarla müraciət edir:

– Dinlədiyiniz səslərə görə hansı obrazları təsəvvür etdiniz? *(Şagirdlərin cavabları dinlənilir.)*

***Tədqiqat sualı:*** Musiqidə obrazları necə müəyyən etmək olar? *(Şagirdlərin fərziyyələri dinlənilir.)*

## II. Fəaliyyət

Müəllim musiqi obrazı haqqında qısa məlumat verir (dərslik, səh. 48). "Mahnının ifa qaydaları" (dərslik, səh. 5) şagirdlərə xatırladılır və vokal məşqi keçirilir. Musiqisi və sözləri Oqtay Zülfüqarova məxsus olan "Nənəm evdə qalıb tək" mahnısı öyrədilir.

*$T_1$ (fərdi iş): "Nənəm evdə qalıb tək" mahnısında olan obrazları sadalayın.*

Sonra mahnının sözlərinə görə onun musiqi obrazlarının müəyyən edilməsi şagirdlərlə müzakirə olunur.

Müəllim kanon haqqında məlumat verir (lüğət, dərslik səh. 48). Sonra şagirdlərin diqqətini dərslikdəki kanonun sxeminə (dərslik, səh. 48) yönəldib onun ifa qaydasını izah edir. "Hərəkətli kanon" oyununu həyata keçirmək üçün şagirdlər qaydalarla tanış olurlar.

**“Hərəkətli kanon” oyununun qaydaları:** Sinif iki qrupa bölünür: böyük qrup (1-ci səs) və kiçik qrup (2-ci səs). Hər qrup bir dairə yaradır və iç-içə iki dairədə düzülür. (*Kanon 2 səsli olduğu üçün oyun iştirakçıları iki qrupa bölünür*). Qrup üzvləri əl-ələ tutub dairədə hərəkət edərək mahnını oxuyurlar: böyük qrup *p*, kiçik qrup *f* dinamik çaları ilə. Hər “dairə” yalnız öz ifası zamanı hərəkət etməyə başlayır. Oyunda uşaqlar bir-birini dinləməli və musiqinin ritminə uyğun hərəkət etməlidirlər.

***Qeyd***. Müəllim hər “dairəyə” hərəkətə başlamaq anını göstərir. Kiçik dairə mahnının birinci sətrini forte dinamik çaları ilə oxuyandan dərhal sonra böyük dairə həmin sətri piano dinamik çaları ilə oxuyur. Mahnının digər sətirləri də həmin ardıcıllıqla oxunur.

***T*2 *(böyük qruplarla iş): “Nənəm evdə qalıb tək” mahnısını f və p dinamik çalarları ilə kanon ifa edin.***

Sonra dinamik çalarlara görə mahnıdakı musiqi obrazlarının xarakterinin müəyyən edilməsi şagirdlərlə müzakirə olunur.

“Musiqi əsərinin dinləmə qaydaları” (dərslik, səh. 5) şagirdlərə xatırladılır və “Şəlalə” Azərbaycan xalq rəqsi səsləndirilir. Müəllim şagirdlərin diqqətini “Şəlalə” mətninə yönəldir (dərslik, səh. 49).

**“Şəlalə”**

*Təbiətin gözəl bir yerində, hündür dağların arasından şəlalə axırdı. Yaxın kəndlər şəlalənin suyundan istifadə edirdi. Uşaqlar şəlaləyə tez-tez gedirdi. Onlar şəlalənin yaxınlığında oynayıb rəqs edir, evlərinə gedəndə isə sahənglərində su aparırdılar. Çünki su həyatdır!*

*T*3 *(kollektiv iş): Mətndəki obrazları rəqs hərəkətləri ilə təsvir edin.*

“Şəlalə” rəqsi təkrar səsləndirilir. Sonra verilmiş mətnə görə rəqsin musiqi obrazlarının müəyyən edilməsi şagirdlərlə müzakirə olunur.

### III. Ümumiləşdirmə və refleksiya

Müəllim suallar verir və şagirdlər onları cavablandırırlar: *Bugünkü dərsimizin mövzusu nə idi? Hansı musiqi nümunələri ilə tanış oldunuz? Dərsdə hansı işləri gördünüz? Musiqi obrazlarını müəyyən etmək üçün sizə hansı üsul daha asan oldu?*

## 23-cü dərs

| | |
|---|---|
| Mövzu: | **Birhissəli musiqi əsərləri** |
| Standart: | 1.2.3., 3.3.2. |
| Məqsəd: | 1. Musiqi əsərinin birhissəli quruluşunu müəyyən edir.<br>2. “Nənəm evdə qalıb tək” mahnısını ritminə və tempinə uyğun oxuyur. |
| İnteqrasiya: | Azərb.d.: 1.2.1., T.i.: 3.1.1. |

**İş forması:** kollektiv, kiçik qruplar, fərdi
**İş üsulu:** müzakirə, dinləmə, mahnıoxuma, konseptual cədvəl, dərsliklə iş
**Resurs:** "Mahnının ifa qaydaları" və "Musiqi əsərinin dinləmə qaydaları" (dərslik, səh. 5), "Nənəm evdə qalıb tək" mahnısının videoçarxı və ya səsyazması, iş vərəqləri, balış, idman halqası və top təsviri olan şəkillər

**Dərsin gedişi:**

## I. Motivasiya

Müəllim lövhədə *balış, idman halqası və top* təsviri olan şəkillər asır. Sonra şagirdlərə suallarla müraciət edir:

– Şəkillərdəki əşyaların quruluşunda neçə hissə var? *(Şagirdlərin cavabları dinlənilir.)*

***Tədqiqat sualı:*** Birhissəli quruluşu musiqidə necə müəyyən etmək olar? *(Şagirdlərin fərziyyələri dinlənilir.)*

## II. Fəaliyyət

Müəllim musiqi quruluşu və birhissəli forma haqqında qısa məlumat verir (dərslik, səh. 50). "Musiqi əsərinin dinləmə qaydaları" (dərslik, səh. 5) şagirdlərə xatırladılır. Müəllim musiqisi və sözləri Oqtay Zülfüqarova məxsus olan "Nənəm evdə qalıb tək" mahnısının bir bəndinin melodiyasını (sözsüz) səsləndirir.

*$T_1$ (fərdi iş): Dinlədiyiniz melodiyanın "Nənəm evdə qalıb tək" mahnısının hansı bəndinə aid olduğunu müəyyən edin. a) Birinci bənd b) İkinci bənd c) Birinci və ikinci bənd*

Sonra ikibəndli "Nənəm evdə qalıb tək" mahnısının birhissəli quruluşda olması şagirdlərlə müzakirə olunur.

Müəllim lövhədə konseptual cədvəl (dərslik, səh. 51) çəkir: 4 sütun (mahnının bəndi, melodiya, ritm, temp) və 3 sətir.

| "Nənəm evdə qalıb tək" mahnısı | Melodiya | Ritm | Temp |
|---|---|---|---|
| I bənd | *qalxan* | *ahəng* | *orta* |
| II bənd | *qalxan* | *ahəng* | *orta* |

Sinif kiçik qruplara bölünür və hər qrupa üzərində cədvəl olan iş vərəqi paylanılır.

Müəllim cədvəllə iş üsulunu şagirdlərə izah edir: iş vərəqində qruplar mahnının melodiyası, ritm və tempinə aid məlumatları müvafiq sütunda qeyd etməlidirlər.

*$T_2$ (kiçik qruplarla iş): Cədvəli doldurun.*

Sonra birhissəli quruluşda olan "Nənəm evdə qalıb tək" mahnısının hər iki bəndinin melodiyası, ritm və tempinin dəyişilməməsi şagirdlərlə müzakirə olunur.

"Mahnının ifa qaydaları" (dərslik, səh. 5) şagirdlərə xatırladılır, vokal məşqi keçirilir və "Nənəm evdə qalıb tək" mahnısı ifa olunur.

***$T_3$* *(kollektiv iş): "Nənəm evdə qalıb tək" mahnısını ritminə və tempinə uyğun oxuyun.*

Sonra mahnının hər iki bəndinin eyni xarakterdə olması şagirdlərlə müzakirə olunur.

### III. Ümumiləşdirmə və refleksiya

Müəllim suallar verir və şagirdlər onları cavablandırırlar: *Bugünkü dərsimizin mövzusu nə idi? Hansı mahnı səsləndi? Dərsdə hansı işləri gördünüz? Dərsdə iştirakınızı necə qiymətləndirərdiniz?*

## 24-cü dərs

**Mövzu:** **İkihissəli musiqi əsərləri**
**Standart:** 1.2.3., 2.1.3.
**Məqsəd:** 1. Musiqi əsərinin ikihissəli quruluşunu müəyyən edir.
2. Musiqi nümunələrini xarakterinə görə ifa edir.
**İnteqrasiya:** Azərb.d.: 1.2.1., T.i.: 3.1.1.
**İş forması:** kollektiv, kiçik qruplar
**İş üsulu:** müzakirə, dinləmə, mahnıoxuma, konseptual cədvəl, dərsliklə iş
**Resurs:** "Mahnının ifa qaydaları" və "Musiqi əsərinin dinləmə qaydaları" (dərslik, səh. 5), "Çal, oyna!" mahnısının videoçarxı və ya səsyazması, ikihissəli musiqi əsərinin quruluşuna aid plakat, iş vərəqləri
**Dərsin gedişi:**

### I. Motivasiya

Lövhədə "Nənəm evdə qalıb tək" mahnısının quruluşunun sxemi asılır.



Sonra şagirdlərə suallarla müraciət edilir:

– Mahnının birhissəli quruluşda olduğunu necə müəyyənləşdirdik? *(Şagirdlərin cavabları dinlənilir.)*

***Tədqiqat sualı:*** Musiqidə ikihissəli quruluşu necə müəyyən etmək olar? *(Şagirdlərin fərziyyələri dinlənilir.)*

## II. Fəaliyyət

Müəllim ikihissəli forma haqqında qısa məlumat verir (dərslik, səh. 52) və quruluşun sxemini (***AB***) lövhədən asır. Sonra plakatdakı dairə və kvadrat təsvirlərinin mənasını izah edir: dairə **–** I hissə (***A***) və kvadrat **–** II hissədir (***B***). “Musiqi əsərinin dinləmə qaydaları” (dərslik, səh. 5) şagirdlərə xatırladılır, “Çal, oyna!” Azərbaycan xalq mahnısının I bəndi və nəqəratı səsləndirilir. Bu zaman müəllim mahnının hissələrinin dəyişdirilməsini bildirmək üçün plakatdakı müvafiq həndəsi formaları göstərir. Sonra lövhədə konseptual cədvəl (dərslik, səh. 52) çəkir: 5 sütun (mahnının hissəsi, melodiya, ritm, temp, ölçü) və 3 sətir.

| “Çal, oyna!” mahnısı | Melodiya | Ritm | Temp | Ölçü (dirijorluq sxeminə əsasən) |
|---|---|---|---|---|
| I hissə | *enən* | *ahəng* | *asta* | *“bir və, iki və, üç və”* |
| II hissə | *qalxan* | *oynaq* | *tez* | *“bir və, iki və”* |

Sinif kiçik qruplara bölünür və hər qrupa üzərində cədvəl olan iş vərəqi paylanılır.

*T1 (kiçik qruplarla iş): Cədvəli doldurun.*

Sonra ikihissəli quruluşda olan “Çal, oyna!” mahnısının hər iki hissəsinin melodiyası, ritm, temp və ölçüsünün dəyişilməsi şagirdlərlə müzakirə olunur. Müzakirə zamanı mahnının bir hissəsinin *bənd*, o biri hissəsinin *nəqərat* adlanması yada salınır.

Müəllim Azərbaycan xalq mahnıları haqqında qısa məlumat verir (dərslik, səh. 53). “Mahnının ifa qaydaları” (dərslik, səh. 5) şagirdlərə xatırladılır, vokal məşqi keçirilir və “Çal, oyna!” mahnısı öyrədilir.

*T2 (kollektiv iş): “Çal, oyna!” mahnısının hissələrini xarakterinə uyğun ifa edin.*

Sonra mahnının hər iki hissəsinin (bənd və nəqəratının) fərqli xarakterdə olması şagirdlərlə müzakirə olunur.

## III. Ümumiləşdirmə və refleksiya

Müəllim suallar verir və şagirdlər onları cavablandırırlar: *Bugünkü dərsimizin mövzusu nə idi? Hansı musiqi nümunələri ilə tanış oldunuz? Dərsdə hansı işləri gördünüz? İkihissəli formada yazılan mahnılardan hansını daha çox bəyəndiniz?*

## 25-ci dərs

**Mövzu:** **Üçhissəli musiqi əsərləri**
**Standart:** 1.2.3., 3.2.3.
**Məqsəd:** 1. Musiqi əsərinin üçhissəli quruluşunu müəyyən edir.
2. Musiqi nümunələrini xarakterinə görə ifa edir.
**İnteqrasiya:** Azərb.d.: 1.2.1., T.i.: 3.1.1.
**İş forması:** kollektiv, kiçik qruplarla, cütlərlə və fərdi iş
**İş üsulu:** müzakirə, dinləmə, mahnıoxuma, konseptual cədvəl, dərsliklə iş
**Resurs:** “Mahnının ifa qaydaları” və “Musiqi əsərinin dinləmə qaydaları” (dərslik, səh. 5), “Çal, oyna!” mahnısının və “Marş” pyesinin video-çarxları və ya səsyazmaları, bir, iki və üçhissəli musiqi əsərinin quruluşuna aid plakat, barabanlar, iş vərəqləri
**Dərsin gedişi:**

### I. Motivasiya

Lövhədə “Nənəm evdə qalıb tək” və “Çal, oyna!” mahnılarının quruluş sxemləri asılır.

“Nənəm evdə qalıb tək” mahnısının quruluşu

“Çal, oyna!” mahnısının quruluşu




Sonra müəllim şagirdlərə suallarla müraciət edir:

– Verilmiş sxemlər hansı quruluşa aiddir? *(Şagirdlərin cavabları dinlənilir.)*

***Tədqiqat sualı:*** Musiqidə üçhissəli quruluşu necə müəyyən etmək olar? *(Şagirdlərin fərziyyələri dinlənilir.)*

### II. Fəaliyyət

Müəllim üçhissəli forma haqqında qısa məlumat verir (dərslik, səh. 54) və quruluşun sxemini (***ABA***) lövhədən asır. Sinif kiçik qruplara bölünür və hər qrupa üzərində cədvəl olan (dərslik, səh. 54) iş vərəqi paylanılır. Cədvəl 6 sütun (*xarakter, melodiya, ritm, temp, ölçü*) və 3 sətirdən ibarətdir.

Üçhissəli musiqi əsərlərinin sxemi



| “Marş” pyesi | Xarakter | Melodiya | Ritm | Temp | Ölçü (dirijorluq sxeminə əsasən) |
|---|---|---|---|---|---|
| dəyişilir | | + | | | |
| dəyişilmir | + | | + | + | + |

*T1 (kiçik qruplarla iş): Cədvəli doldurun.*

Sonra qrupların qeydləri dinlənilir və mahnının hissələrində müşahidə olunan dəyişikliklər müzakirə edilir.

Musiqisi Üzeyir Hacıbəyliyə, sözləri Səməd Vurğuna məxsus olan “Döyüşçülər marşı” mahnısı səsləndirilir. Sonra mahnının melodiyasında intonasiyaların dəyişilməsi şagirdlərlə müzakirə olunur. Müzakirə zamanı mahnının üçhissəli quruluşda yazıldığı qeyd olunur.

Müəllim 2-ci tapşırığı yerinə yetirmək üçün şagirdlərin diqqətini “Döyüşçülər marşı” mahnısının müşayiət sxeminə (dərslik, səh. 55) yönəldir. Bu tapşırığın icrasında şagirdlərə kömək etmək üçün müəllim dirijorluq edir (“Bir və, iki və” dirijorluq sxeminə əsasən). Mahnının ölçüsünə görə I və III hissələrində “bir” sayına nağara zərb alətində vurulmalı, II hissənin isə hər “bir” və “iki” sayına əl çalınmalı olduğunu bildirir. İzahatdan sonra sinfə barabanlar paylanılır.

*T2 (fərdi və kollektiv iş): “Döyüşçülər marşı” mahnısını dinləyərkən hissələrin ritmini sxemdə verilmiş üsullarla göstərin.*

“Marş” pyesi təkrar səsləndirilir. Sonra musiqinin quruluşunun müşayiətin vasitəsilə müəyyən edilməsi imkanı şagirdlərlə müzakirə olunur.

“Mahnının ifa qaydaları” (dərslik, səh. 5) şagirdlərə xatırladılır, vokal məşqi keçirilir və “Çal, oyna!” Azərbaycan xalq mahnısı ifa olunur.

Müəllim bu mahnının bənd və nəqəratından istifadə etməklə müxtəlif quruluşda musiqi nümunələri yaradılmasının mümkün olduğu haqqında məlumat verir. Sinif cütlərə bölünür və hər cütə üzərində *birhissəli, ikihissəli* və *üçhissəli* yazılmış 3 kart paylanılır. “Çal, oyna!” mahnısı müxtəlif variantlarda səsləndirilir: I dəfə mahnının nəqəratı, II dəfə nəqərat, bənd və yenə nəqərat, III dəfə isə bənd və nəqərat. Mahnının hissələri müxtəlif variantlarda səsləndikdən sonra cütlər həmin variantın quruluşunu təyin edərək ona uyğun kartı qaldırır.

*T3 (cütlərlə iş): Dinlədiyiniz musiqi parçalarının quruluşunu müəyyən edin.*

Sonra musiqinin quruluşunun müəyyən olunması yolları şagirdlərlə müzakirə olunur.

## III. Ümumiləşdirmə və refleksiya

Müəllim suallar verir və şagirdlər onları cavablandırırlar: *Bugünkü dərsimizin mövzusu nə idi? Hansı musiqi nümunələri ilə tanış oldunuz? Dərsdə hansı işləri gördünüz? Dərsdə sizə maraqlı olan nə idi?*

# 26-cı dərs

**Mövzu:** **Bəstəkar – ifaçı – dinləyici**
**Standart:** 2.1.1., 3.1.2.
**Məqsəd:** 1. Musiqi əsərinin emosional məzmunu haqqında danışır.
2. "Yaxşı otur, yaxşı dur!" mahnısını kanon oxuyur.
**İnteqrasiya:** Azərb.d.: 3.1.4.
**İş forması:** kollektiv, kiçik qruplar, fərdi
**İş üsulu:** müzakirə, dinləmə, mahnıoxuma, inşa, müşahidə, dəyərləndirmə cədvəli, dərsliklə iş
**Resurs:** "Mahnının ifa qaydaları" və "Musiqi əsərinin dinləmə qaydaları" (dərslik, səh. 5), "Yaxşı otur, yaxşı dur!" mahnısının və bəstəkar Səid Rüstəmovun mahnılarından ibarət konsertdən "Qəhrəmani" pyesinin videoçarxları və ya səsyazmaları, "Bəxtiyar" bədii filmindən bir parça, iş vərəqləri
**Dərsin gedişi:**

## I. Motivasiya

"Bəxtiyar" bədii filmindən bir parça nümayiş etdirilir. Sonra müəllim şagirdlərə suallarla müraciət edir:

– "Konsert" sizə necə təsir etdi? *(Şagirdlərin cavabları dinlənilir.)*

***Tədqiqat sualı:*** Konsertdən alınan əhvali-ruhiyyə daha çox kimdən asılıdır: bəstəkar, ifaçı, yoxsa dinləyicidən? *(Şagirdlərin fərziyyələri dinlənilir.)*

## II. Fəaliyyət

Sinfə dərsin mövzusuna aid qısa məlumat (dərslik, səh. 56) verilir. Sinif kiçik qruplara bölünür və hər qrupa üzərində 4 sütunlu cədvəl (dərslik, səh. 57) çəkilmiş iş vərəqi paylanılır. Cədvəlin I sütununda *"Mahnının ifa qaydaları"*, III sütununda *"Musiqi əsərinin dinləmə qaydaları"*, II və IV sütunlarında isə *Qeyd üçün* yazılmışdır.

***T*** *₁ (kiçik qruplarla iş): Bədii filmdəki "konsertdə" riayət olunan qaydaları cədvəldə qeyd edin.*

Dərsin *Motivasiya* mərhələsində göstərilən bədii filmdən parça təkrar nümayiş etdirilir. Sonra qrupların qeyd etdikləri qaydalar şagirdlərlə müzakirə olunur.

Müəllim vokal məşqi keçirir və musiqisi Ağabacı Rzayevaya, sözləri İsmayıl Soltana məxsus olan "Yaxşı otur, yaxşı dur!" mahnısını şagirdlərə öyrədir. Mahnının kanonla ifa qaydası şagirdlərə xatırladılır.

***T*₂ (kollektiv iş): "Yaxşı otur, yaxşı dur!" mahnısını kanonla ifa edin.**

Sonra mahnının kanonla ifasının onun emosional məzmununa təsiri şagirdlərlə müzakirə olunur.

3-cü tapşırığı yerinə yetirmək üçün bəstəkar Səid Rüstəmova məxsus olan "Qəhrəmani" pyesinin videoçarxı nümayiş etdirilir (Bəstəkar Səid Rüstəmovun mahnılarından ibarət konsertdən bir parça). Müəllim lövhədə *konsert, bəstəkar, ifaçı, dinləyici, musiqi əsəri, əhvali-ruhiyyə* sözlərini yazır.

*$T_3$ (fərdi iş): Verilmiş sözlərdən istifadə edərək konsert haqqında təəssüratlarınızı yazın.*

Sonra konsert haqqında təəssüratlar şagirdlərlə müzakirə olunur.

### III. Ümumiləşdirmə və refleksiya

Müəllim suallar verir və şagirdlər onları cavablandırırlar: *Bugünkü dərsimizin mövzusu nə idi? Hansı musiqi nümunələri ilə tanış oldunuz? Dərsdə hansı işləri gördünüz? Konsertdə ifaçı, yoxsa dinləyici kimi iştirak etmək istərdiniz?*

## 27-ci dərs

**Mövzu:** **Afişa**

**Standart:** 1.2.1., 2.1.1.

**Məqsəd:** 1. Dinlədiyi musiqi əsərinin janrını müəyyən edir.
2. Musiqi əsərinin emosional xarakterini izah edir.

**İnteqrasiya:** T.i.: 2.1.1.

**İş forması:** kollektiv, kiçik qruplar

**İş üsulu:** müzakirə, dinləmə, mahnıoxuma, afişa tərtibatı, dərsliklə iş

**Resurs:** "Mahnının ifa qaydaları", "Musiqi əsərinin dinləmə qaydaları" (dərslik, səh. 5), "Rəngbərəng afişa", "Çal, oyna!", "Cücələrim", "Qatar", "Yaxşı otur, yaxşı dur!", "Qaliblər mahnısı", "İdman" və "Vətən" mahnılarının, "Xurcun", "Şəlalə", "Yallı" rəqslərinin videoçarxları və ya səsyazmaları, iş vərəqləri, albom vərəqləri, rəngli qələmlər

## Dərsin gedişi:

### I. Motivasiya

Sinifdə Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrının "Qoğal" tamaşasının afişası nümayiş etdirilir. Sonra şagirdlərə suallarla müraciət olunur:

– Gördüyünüz afişa tamaşa haqqında hansı maraqlı məlumatları bildirdi? *(Şagirdlərin cavabları dinlənilir.)*

***Tədqiqat sualı:*** Konsertə maraq yaratmaq üçün afişanı necə tərtib etmək olar? *(Şagirdlərin fərziyyələri dinlənilir.)*

### II. Fəaliyyət

Sinfə afişa haqqında qısa məlumat verilir (dərslik, səh. 58). "Mahnının ifa qaydaları" (dərslik, səh. 5) şagirdlərə xatırladılır və vokal məşqi keçirilir. Sonra musiqisi Oqtay Zülfüqarova, sözləri Teymur Elçinə məxsus olan "Rəngbərəng afişa" mahnısı öyrədilir. Sinif qruplara bölünür və hər qrupa rəngli qələmlər və albom vərəqi paylanılır.

*$T_1$ (kiçik qruplarla iş): "Xoşbəxt uşaqlar" mövzusunda konsertin afişası üçün şəkil çəkin.*

Sonra qrupların afişa üçün çəkdiyi şəkillər müzakirə olunur.

Hər qrupa üzərində üçsütunlu (I sütunda – "Mahnı", II sütunda –"Marş", III sütunda "Rəqs" yazılmış) cədvəl olan (dərslik, səh. 59) iş vərəqləri paylanılır. "Musiqi əsərinin dinləmə qaydaları" (dərslik, səh. 5) şagirdlərə xatırladılır. Müəllim il boyu keçilən musiqi nümunələrindən (hər 3 janra aid) kiçik parçalar səsləndirir və onların adlarını bildirir: "Çal, oyna!", "Cücələrim", "Qatar", "Yaxşı otur, yaxşı dur!", "Qaliblər mahnısı", "İdman", "Vətən", "Xurcun", "Şəlalə", "Yallı".

*$T_2$ (kiçik qruplarla iş): Dinlədiyiniz musiqi nümunələrinin adlarını janrlarına görə cədvəlin müvafiq sütununda yazın.*

Sonra hər qrupun iş vərəqləri müzakirə olunur.

Üçüncü tapşırığın yerinə yetirilməsi zamanı ikinci tapşırığın iş vərəqləri istifadə olunur.

*$T_3$ (kiçik qruplarla iş): "Xoşbəxt uşaqlar" adlı konsertin afişası üçün 2 mahnı, 1 marş, 1 rəqs seçin.*

Sonra qrupların "afişa"larında yazılmış musiqi nümunələri şagirdlərlə müzakirə olunur və emosional məzmununa görə onlardan ən uyğun olan afişa sinfin qərarı əsasında konsertin proqramı kimi qəbul edilir.

### III. Ümumiləşdirmə və refleksiya

Müəllim suallar verir və şagirdlər onları cavablandırırlar: *Bugünkü dərsimizin mövzusu nə idi? Hansı musiqi nümunələri ilə tanış oldunuz? Dərsdə hansı işləri gördünüz? Konsertin afişasına nəyi əlavə edərdiniz?*

## 28-ci dərs

**Mövzu:** **Konsertə hazırlıq**

**Standart:** 2.1.3., 3.1.1.

**Məqsəd:** 1. Musiqi nümunələrini (mahnı, marş, rəqs) xarakterinə uyğun ifa edir.
2. Müəllimin göstərişi ilə mahnını oxuyur.

**İnteqrasiya:** F.t.: 4.1.1.

**İş forması:** kollektiv

**İş üsulu:** müzakirə, dinləmə, mahnıoxuma, rəqsetmə, musiqi alətlərində çalma, dərsliklə iş

**Resurs:** “Mahnının ifa qaydaları” və “Musiqi əsərinin dinləmə qaydaları” (dərslik, səh. 5), afişa, “Rəngbərəng afişa” mahnısının və konsert afişasında qeyd olunan musiqi nümunələrinin videoçarxları və ya səsyazmaları, zərb musiqi alətləri, rəqs atributları

**Dərsin gedişi:**

### I. Motivasiya

Müəllim şagirdlərin diqqətini lövhədə yazılmış *Konsertdən əvvəl sonuncu məşq* ifadəsinə yönəldir. Sonra sinfə suallarla müraciət edir:

– Bu cümləni necə başa düşürsünüz? *(Şagirdlərin cavabları dinlənilir.)*

***Tədqiqat sualı:*** Nə üçün konsertdən əvvəl sonuncu məşq keçirilir? *(Şagirdlərin fərziyyələri dinlənilir.)*

### II. Fəaliyyət

Sinif otağında müəllimin hazırladığı afişa asılır. (Afişaya şagirdlərin keçən dərsdə çəkdikləri şəkillər əlavə olunub.) “Mahnının ifa qaydaları” (dərslik, səh. 5) şagirdlərə xatırladılır və vokal məşqi keçirilir. Sonra afişada qeyd olunan mahnıların üzərində iş aparılır (*nəfəsalma, tələffüz, təmiz intonasiya, xarakter, dinamik çalarlar* və s.)

*$T_1$ (kollektiv iş): Afişada qeyd olunan mahnıları ifadəli oxuyun.*

Sonra konsertdə mahnıların ifası üçün görülən işlər şagirdlərlə müzakirə olunur.

"Musiqi əsərinin dinləmə qaydaları" (dərslik, səh. 5) şagirdlərə xatırladılır. Sinfə zərb musiqi alətləri paylanılır. Afişada qeyd olunan marş xarakterli musiqi nümunəsinin üzərində iş aparılır (*xarakter, ritm, ölçü, dinamik çalarlar* və s.).

***T*** *2 (kollektiv iş): Dinlədiyiniz musiqi nümunəsini zərb musiqi alətlərində xarakterinə uyğun müşayiət edin.*

Sonra konsertdə marş xarakterli musiqi nümunəsinin müşayiəti üçün görülən işlər şagirdlərlə müzakirə olunur.

Müəllim afişada qeyd olunan rəqsin hərəkətlərini şagirdlərə xatırladır. Rəqs üzərində iş aparılır (*xarakter, ritm, ölçü, hərəkətlərin icrası* və s.).

***T*** *3 (kollektiv iş): Afişada qeyd olunan rəqsi xarakterinə uyğun ifa edin.*

Sonra konsertdə rəqsin ifası üçün görülən işlər şagirdlərlə müzakirə olunur.

### III. Ümumiləşdirmə və refleksiya

Müəllim suallar verir və şagirdlər onları cavablandırırlar: *Bugünkü dərsimizin mövzusu nə idi? Hansı musiqi nümunələri səsləndirildi? Dərsdə hansı işləri gördünüz? "Xoşbəxt uşaqlar" adlı konsertə kimi dəvət edərdiniz?*

## 29-cu dərs

| | |
|---|---|
| **Mövzu:** | **Bayram konserti** |
| **Standart:** | 2.1.3., 3.2.3. |
| **Məqsəd:** | 1. Musiqi nümunələrini (mahnı, marş, rəqs) xarakterinə uyğun ifa edir.<br>2. Musiqi alətində sadə melodiyaları ansambl (qrup şəklində) şəklində ifa edir. |
| **İnteqrasiya:** | H.b.: 2.1.2. |
| **İş forması:** | kollektiv |
| **İş üsulu:** | müzakirə, dinləmə, mahnıoxuma, rəqsetmə, musiqi alətlərində çalma, dərsliklə iş |
| **Resurs:** | "Mahnının ifa qaydaları" və "Musiqi əsərinin dinləmə qaydaları" (dərslik, səh. 5), afişa, "Rəngbərəng afişa" və konsert afişasında qeyd olunan musiqi nümunələrinin videoçarxları və ya səsyazmaları, zərb musiqi alətləri, rəqs atributları |

## Dərsin gedişi:

### I. Motivasiya

Müəllim konsertin mövzusuna uyğun tərtib olunmuş sinif otağında "Xoşbəxt uşaqlar" adlı bayram konserti üçün hazırlanmış afişanı lövhənin yanında asır. Musiqisi Oqtay Zülfüqarova, sözləri Teymur Elçinə məxsus olan "Rəngbərəng afişa" mahnısı səsləndirilir. Sonra müəllim şagirdlərə suallarla müraciət edir:

– Mahnıda nədən danışılır? *(Şagirdlərin cavabları dinlənilir.)*

***Tədqiqat sualı:*** Sizcə, konsertin bayram əhvali-ruhiyyəsini necə əks etdirmək olar? *(Şagirdlərin fərziyyələri dinlənilir.)*

### II. Fəaliyyət

Afişada qeyd olunan musiqi nümunələri ardıcıllıqla ifa olunur.

"Mahnının ifa qaydaları" (dərslik, səh. 5) şagirdlərə xatırladılır və vokal məşqi keçirilir.

*$T_1$ (kollektiv iş): Afişada verilmiş birinci mahnını xarakterinə uyğun ifa edin.*

Müəllim uşaq zərb musiqi alətlərini sinfə paylayır.

*$T_2$ (kollektiv iş): Dinlədiyiniz musiqi nümunəsini zərb musiqi alətlərində xarakterinə uyğun müşayiət edin.*

*Afişadakı 2-ci mahnını ifa etməzdən əvvəl müəllim musiqi alətlərini yığır.*

*$T_3$ (kollektiv iş): Afişada verilmiş ikinci mahnını xarakterinə uyğun ifa edin.*

Afişada qeyd olunan rəqsə uyğun müxtəlif atributlar şagirdlərə paylanılır.

*$T_4$ (kollektiv iş): Afişada verilmiş rəqsi xarakterinə uyğun ifa edin.*

Sonra konsertdə bayram əhvali-ruhiyyəli ifalar şagirdlərlə müzakirə olunur.

### III. Ümumiləşdirmə və refleksiya

Müəllim suallar verir və şagirdlər onları cavablandırırlar: *Bugünkü dərsimizin mövzusu nə idi? Hansı musiqi nümunələri səsləndirildi? Dərsdə hansı işləri gördünüz? Dostlar, bayram konsertində daha çox nə xoşunuza gəldi?*

# Azərbaycan Respublikasının Dövlət Himni

Musiqisi Üzeyir Hacıbəylinin,
sözləri Əhməd Cavadındır.

**Marş tempində**



## Bayram günü

Musiqisi Üzeyir Hacıbəylinin,
sözləri Mirmehdi Seyidzadənindir.

**Marş tempində**




## Mişar

Musiqisi Ağabacı Rzayevanın,
sözləri Cahangir Məmmədovundur.

**Oynaq, şən**



# Sabahın ustaları

Musiqisi Ağabacı Rzayevanın,
sözləri Hüseyn Abbaszadənindir.

**Mülayim**




# Laylay

Musiqisi Oqtay Zülfüqarovun,
sözləri Teymur Elçinindir.

**Mülayim**



# Ana laylası

Musiqisi Oqtay Zülfüqarovun,
sözləri Rəfiq Zəkanındır.




# İdman

Musiqisi Oqtay Zülfüqarovun,
sözləri Səttar Zərdablınındır.



# Bənövşə

Azərbaycan uşaq
xalq mahnısı




# Gənc idmançılar marşı

Musiqisi Musa Mirzəyevin,
sözləri Hikmət Ziyanındır.






# Vətən

Musiqisi Səid Rüstəmovun,
sözləri Süleyman Rüstəmindir.



# Ey Vətən

Musiqisi Üzeyir Hacıbəylinin,
sözləri Səməd Vurğunundur.






# Üzümçülər

Musiqisi Şəfiqə Axundovanın,
sözləri Cavad Cavadlınındır.

**Oynaq, şən**



# Sadiq olaq Vətənə

Musiqisi və sözləri Oqtay Zülfüqarovundur.




# Cücələrim

Musiqisi Qəmbər Hüseynlinin,
sözləri Tofiq Mütəllibovundur.






# Qaliblər mahnısı

Musiqisi Qəmbər Hüseynlinin,
sözləri Ələkbər Ziyatayındır.



# Qatar

Musiqisi Fikrət Əmirovun,
sözləri Zeynal Cabbarzadənindir.




# Quşlar

Musiqisi Fikrət Əmirovun,
sözləri Zeynal Cabbarzadənindir.




# Qərənfil

Musiqisi Səid Rüstəmovun,
sözləri Mirmehdi Seyidzadənindir.

Mülayim



# Quzum

Azərbaycan xalq mahnısı




# Qırmızı şar

Musiqisi Ağabacı Rzayevanın,
sözləri Cahangir Məmmədovundur.



# Zəfər bizimdir

Musiqisi Şəfiqə Axundovanın,
sözləri Abdulla Şaiqindir.

**Tələsmədən**




# Nənəm evdə qalıb tək

Musiqisi və sözləri Oqtay Zülfüqarovundur.

**Sevinclə**






## Çal, oyna!

Azərbaycan xalq mahnısı



# Yaxşı otur, yaxşı dur!

Musiqisi Ağabacı Rzayevanın,
sözləri İsmayıl Soltanındır.




# Rəngbərəng afişa

Musiqisi Oqtay Zülfüqarovun,
sözləri Teymur Elçinindir.



# Marş

*Pyesdən bir parça*

Musiqisi Musa Mirzəyevindir.



# Yumoreska

*Pyesdən bir parça*

Musiqisi Musa Mirzəyevindir.



# Məktəbə gedərkən

*Pyesdən bir parça*

Musiqisi Qəmbər Hüseynlinindir.

**Marş tempində**



# Marş

Pyes

Musiqisi Üzeyir Hacıbəylinindir.

**Tez**



# Pambığı

Azərbaycan xalq rəqsi

**Mülayim**




# Xurcun

Azərbaycan xalq rəqsi

**Tələsmədən**





## Cəngi

Azərbaycan xalq rəqsi

**Tez**



## Yallı

Azərbaycan xalq rəqsi

**Hərəkətli**



# Novruzu

Azərbaycan xalq rəqsi

**Mülayim**



# Şəlalə

*(bir parça)*

Azərbaycan xalq rəqsi

**Tələsmədən**



# İSTİNAD EDİLMİŞ MƏNBƏLƏR


**Azərbaycan dilində**

1. İradə Məmmədova. Uşaqların musiqi dünyası. Bakı, 2004.
2. Kamal Həsənov. Azərbaycan qədim folklor rəqsləri. "İşıq" nəşriyyatı, Bakı, 1988.
3. N.Bağırov. "Musiqinin elementar nəzəriyyəsi". Bakı, 1982.
4. N.Mirməmmədli. Solfecio. Bakı, 2017.
5. N.Mirzəyeva. "Xorşünaslıq". Bakı, 2007.
6. Ramiz Zöhrabov. Bəstəkarlarımızın portreti. "Gənclik" nəşriyyatı, Bakı, 1997.
7. Y.Həbibov. "Dirijorluq və onun tədrisi metodikası". Bakı, 1999.
8. Y.Kərimov. "Təlim metodları". Bakı, 2007.
9. Z.İsmayılova. İzahlı xor lüğəti. Bakı, 2009.
10. Zülfiyyə Veysova. Fəal/interaktiv təlim: müəllimlər üçün vəsait. UNICEF, 2007.
11. Zümrüd Sədraqızı. Uşaq bağçalarında musiqi məşğələlərinin müntəxəbatı. Bakı, 2005.
12. "Ümumtəhsil məktəblərinin I-IV sinifləri üçün fənn kurikulumları". Elmi redaktor İsgəndər İsgəndərov. "Təhsil" nəşriyyatı, Bakı, 2008.

**Rus dilində**

13. Критская Е.Д., Сергеева Г.П., Шмагина Г.С. Методика работы с учениками. "Музыка" 1-4 класс. Издательство "Просвещение". Москва, 2002.
14. Методика музыкального воспитания в детском саду (под редакцией Н.А.Ветлугиной). Издательство "Просвещение". Москва, 1982.

**İnternet resursları**

15. Azərbaycan rəqslərinin səhnə təcəssümü http://konservatoriya.az/?p=3569
16. Diferensial təlim haqqında http://www.tipii.edu.az/az/article/554-diferensial-talim-haqqinda
17. www.bloqspot.com. (Azərbaycan xalq rəqsləri).
18. www.unisef.org (tərkibinə təlim materiallarına müxtəlif səviyyələr üçün istinadlar daxildir).
19. www.composersunion.az (Azərbaycan Bəstəkarlar İttifaqı)
20. www.kurikulum.az
21. www.educult.az
22. http://music.mctgov.az
23. http://uzeyir.musigi-dunya.az
24. https://portal.azertag.az/az/encyclopedia/post/11410
25. http://mk.musigi-dunya.az/songs.html
26. http://www.aduf.az/kollektiv.html

# Buraxılış məlumatı


**MUSİQİ 2**

*Ümumi təhsil müəssisələrinin 2-ci sinifləri üçün*
*Musiqi fənni üzrə dərsliyin (qrif nömrəsi: 2021-016)*

**METODİK VƏSAİTİ**

**Tərtibçi heyət:**

Müəlliflər: **Nərgiz Rəcəbova**
**Şəhla Quliyeva**
**Zemfira Əliyeva**

Buraxılışa məsul **Rafiq Kazımov**
Dizayner və səhifələyici **Aytən Alışova**
Üz qabığının dizayneri **Nurlan Nəhmətov**
Redaktor **Yeganə Abdullayeva**
Korrektor **Nigar Əliyeva**
Texniki redaktor **Sevinc Yusifova**
Baş redaktor **Samirə Bektaşi**
Texniki direktor **Xəqani Fərzalıyev**
Nəşriyyat direktoru **Sevil İsmayılova**

Rəqəmsal mobil texnologiyaların (animasiyalar, multimedia və QR kodlar) dərslik və metodik vəsaitlərdə istifadəsinin ideya müəllifi **Rafiq Kazımov**



**© "Şərq-Qərb" Açıq Səhmdar Cəmiyyəti**

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.



Hesab-nəşriyyat həcmi 8,3. Fiziki çap vərəqi 10. Formatı 57x82 $^{1}/_{8}$.
Kəsimdən sonra ölçüsü: 195x275. Səhifə sayı 80.
Şriftin adı və ölçüsü: məktəb qarnituru 10-12. Ofset kağızı. Ofset çapı.
Sifariş Tiraj 3800. Pulsuz. Bakı – 2021

**Əlyazmanın yığıma verildiyi və çapa imzalandığı tarix: 07.08.2021**

Çap məhsulunu nəşr edən:
**"Şərq-Qərb" ASC**
**(Bakı, AZ1143, Hüseyn Cavid pr., 111)**

Çap məhsulunu istehsal edən:
**"Radius MMC" mətbəəsi**
**(Bakı şəhəri, Binəqədi şossesi, 53)**

Pulsuz